Günəş Şərqdən doğur!

№ 98 (5379), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

5 iyun 2021-ci il (şənbə)




## Günün içindən...



### “Beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir!

Mehriban Əliyeva Kəlbəcərdə mülki şəxslərin minaya düşərək həlak olması ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində iyunun 4-də Kəlbəcərdə azərbaycanlı dinc mülki şəxslərin mina partlaması nəticəsində həlak olması ilə bağlı paylaşım edib.

(səh.2)

### “Azərbaycanlı jurnalistlərin faciəvi ölümü dəhşətli xəbərdir"



ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi bəyanat verib (səh.5)

# Dünya görsün!




## Erməni vandalizmi jurnalistlərin qətlinə səbəb oldu

(səh.8)



# Situasiya dəyişəcək

Azərbaycanın Qarabağdakı erməni silahlı birləşmələrinə qarşı əməliyyata başlaması mümkündür

(səh.3)

### Kəlbəcərdə həlak olan media nümayəndələrinin nəşi ailə üzvlərinə təhvil verilib

(səh.8)

### 84 yaşlı ahıla zülm edənə ömürlük cəza verilməlidir

Novella Cəfəroğlu: “Mən belə məsələlərdə çox qəddaram”

(səh.5)

### Ermənistanda qiyamət qopub

Üst-üstə qalanan əsgər cəsədləri ölkəni ayağa qaldırdı

(səh.9)

### Xəstələrin gözləri çıxarılır

Dəhşəti əks etdirən fotolar yayıldı

(səh.9)

# “Beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir!

## Mehriban Əliyeva Kəlbəcərdə mülki şəxslərin minaya düşərək həlak olması ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində iyunun 4-də Kəlbəcərdə azərbaycanlı dinc mülki şəxslərin mina partlaması nəticəsində həlak olması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:**

“Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimovun və Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin Kəlbəcər rayonunda vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olmaları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçılar tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub. Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və Azərbaycana qarşı terror siyasəti həyata keçirməyə davam edir. Təəssüf ki, Azərbaycan tərəfinin ATƏT-in Minsk Qrupu ölkələrinə, həmçinin müxtəlif beynəlxalq təşkilatlara mina xəritələrinin verilməsi məsələsində Ermənistana təzyiq göstərməsi ilə bağlı çağırışları heç bir nəticə vermədi. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir! Azərbaycan xalqı müzəffər xalqdır! Onun iradəsini sındırmaq və onu qorxurtmaq qeyri-mümkündür! Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin! Məkanları cənnət olsun!”

# “Bu, Ermənistanın terrorçu əməllərinin növbəti sübutudur"

## MEDİA Kəlbəcərdə minaya düşərək şəhid olan jurnalistlərlə bağlı bəyanat yayıb

**Medianın İnkişafı Agentliyi (MEDİA) Kəlbəcərdə mina partlayışı nəticəsində Azərbaycanın iki media işçisinin şəhid olması ilə bağlı bəyanat yayıb.**

*“Şərq”in xəbərinə görə, bəyanatda deyilir:*

”İşğaldan azad edilmiş Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən ”Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” QSC-nin operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AzərTAC-ın) müxbiri Məhərrəm İbrahimovun və daha bir mülki vətəndaşımızın minaya düşərək həlak olması, bir neçə nəfərin yaralanması Ermənistanın terrorçu əməllərinin növbəti əyani sübutudur.

Bütün beynəlxalq konvensiyalara və əldə olunmuş razılıqlara zidd olaraq Ermənistan tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşdirilmiş minaların xəritələrinin Azərbaycana təhvil verilməməsi minlərlə insanın həyatını təhlükəyə məruz qoyur və bu gün olduğu kimi günahsız insanların ölümü ilə nəticələnir.

Törədilən terror aktı beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların əlavə protokollarının ağır pozuntusu olmaqla Ermənistanın sülhə, təhlükəsizliyə və beynəlxalq hüquqa saymazyana münasibətinin, cəzasızlıq mühitinin formalaşdırılması səbəbindən bu kimi qeyri-insani davranışları vərdiş halına gətirməsinin və humanist ideyaları təcavüzkar milliyyətçiliyə qurban verməsinin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən törədilmiş qeyri-insani hərəkətlər, nadir mədəni tarixi abidələrimizin amansızcasına dağıdılması, təbii sərvətlərimizin talan edilməsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, tarixi reallıqların lentə alınaraq əbədiləşdirilməsi məqsədilə ən çətin şəraitdə çalışarkən həlak olmuş jurnalist həmkarlarımızın vəfatından kədərləndiyimizi bildirir, ailələrinə başsağlığı verir, Allahdan onların əzizlərinə və doğmalarına səbr diləyirik”.

# 120-dən çox media, jurnalist təşkilatı rəhbəri və müstəqil jurnalist imza atdı

## Azərbaycan jurnalistlərinin xarici media qurumlarına və beynəlxalq təşkilatlara müraciəti qəbul olunub

Dünən Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin ("AZƏRTAC") müxbiri Məhərrəm İbrahimovun və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olmaları ilə bağlı Azərbaycan jurnalistlərinin xarici media qurumlarına və beynəlxalq təşkilatlara müraciəti qəbul edilib.

120-dən çox media, jurnalist təşkilatı rəhbərinin və müstəqil jurnalistin imza atdıqları müraciəti təqdim edirik:

2021-ci il iyun ayının 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (”AZƏRTAC”) Qarabağa ezam olunan müxbiri Məhərrəm İbrahimov və ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışov Azərbaycanın Ermənistan işğalından azad edilmiş Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olublar. Daha bir mülki şəxsin həlak olduğu, üç nəfərin isə yaralandığı bu hadisə Azərbaycan jurnalistlərində dərin üzüntü, kədər, təəssüf və hiddət hissi doğurmuşdur.

İkinci Qarabağ Müharibəsinin başa çatmasından, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli birgə bəyanatdan sonra Ermənistan tərəfindən vaxtilə ərazidə yerləşdirilmiş müxtəlif növ minalar və digər partlayıcı qurğular indiyədək xeyli sayda mülki şəxsin həyatına son qoyub, yaralanmalarına səbəb olub. Təxminən 35000-dən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir. Məhərrəm İbrahimovun və Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisə minalanmış ərazilər probleminin jurnalist fəaliyyətinə də maneçilik törətdiyinin, məhdudiyyət yaratdığının, peşəni əsl təhlükəyə çevirdiyinin bariz göstəricisidir. Nəzərə alaq ki, hər iki media orqanının əməkdaşı Kəlbəcər rayonuna məhz xidməti vəzifələrini həyata keçirmək üçün getmişdilər.




Ermənistan Respublikası minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Bu, nəinki həmin ərazilərdə jurnalist yaradıcılığını məhdudlaşdırır, eyni zamanda Ermənistanın işğalı nəticəsində zorla doğma yurdlarından ayrı düşmüş məcburi köçkün ailələrinin geri qayıtarılmasına da imkan vermir. Beləliklə həm cəmiyyətin informasiya ilə təminatı, həm də insanların öz evlərində yaşamaq hüququ pozulur. Otuz ilə yaxın müddətdə işğalçılıq yolu tutmuş Ermənistan indi də mina xəritələrini verməkdən imtina etməklə özünün beynəlxalq hüquqa zidd niyyətini gerşəkləşdirməkdə, bölgədə sülhün və əminamanlığın yaranmasına qarşı çıxmaqdadır.

Onu da bildiririk ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işlərinə başlanılıb. Əraziyə xarici şirkətlərin böyük marağı var. Bu maraq eyni zamanda müxtəlif ölkələrdən jurnalistlərin bölgəyə axınını şərtləndirməkdədir. Ermənistanın mina xəritələrini verməkdən imtinası xarici media təmsilçilərinin də həyatlarına təhlükədir. Bu, məqsədli şəkildə edilən hərəkətdir, bəşəri dəyərlərə birbaşa təhdid əməlidir. Çox istərdik ki, beynəlxalq təşkilatlar, o cümlədən jurnalistika sahəsində fəaliyyət göstərən nüfuzlu qurumlar məsələ ilə bağlı qətiyyətli və prinsipial mövqelərini bildirsinlər. Hesab edirik ki, onların verəcəkləri sərt reaksiya Ermənistanın tutduğu anti-bəşəri yoldan daşınmasına əməli töhfə ola bilər. Biz Azərbaycan jurnalistlərinin gösləntisi məhz bundan ibarətdir.

Biz Azərbaycan jurnalistləri Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin (AZTV) operatoru Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisədən bir daha kədərləndiyimizi bildiririk. Bu müraciəti imzalamaqla məqsədimiz beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın insan hüquq və azadlıqlarına zidd əməlinə çəkməkdir.

Biz xaricdəki həmkarlarımızı bu fakta ciddi reaksiya verməyə, Ermənistan Respublikasına minalanmış ərazilərin xəritələrini vermək üçün təzyiq göstərməyə çağırırıq. Əmin edirik ki, bu çağırış missiyasına dəstək insanların, habelə jurnalistlərin həyatları üçün mövcud olan təhlükənin aradan qaldırılmasına köməkdir. Bu dəstək həmçinin bölgədə sülhün, əminamanlığın və sabitliyin yaradılmasına son dərəcə böyük töhfə ola bilər.

# Dünya və reallıqlar dəyişib

## Bayden Putin görüşü dünyanı bölüşdürməyə həsr olunmayıb



### Sadəcə, ABŞ tərəfi Rusiyanı geri çəkilməyə məcbur etmək istəyir

**İyunun 16-da ABŞ Prezidenti Co Baydenlə Rusiya rərbəri Vladimir Putin arasında görüşün olacağı deyilir. Daha doğrusu, iki lider Cenevredə keçiriləcək Zirvə görüşündən sonra bir araya gəlməyi planlaşdırır.**

Bəzi respublikaçı qanunvericilər Moskva və Belarus tərəfindən atılan son addımlarla bağlı narahatlıqlarını bildirərək, Prezident Baydenin Rusiya lideri ilə görüşmək qərarını tənqid ediblər. Məlumata görə, ölkə başçıları silahlara nəzarət, iqlim dəyişikliyi və İranla nüvə razılaşmasının bərpası da daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələləri müzakirə edəcəklər. Vaşinqton Baydenin Putinlə görüşünü təsdiqləyib. Lakin Ağ Evin mətbuat katibi Cen Psaki yazılı açıqlamasında bildirib ki, Bayden Cenevrədə yalnız Rusiya Prezidenti Vladimir Putinlə deyil, digər ölkə rəhbərləri ilə də görüşəcək. Bir sıra ekspertlər Bayden-Putin görüşünü proseslərə yeni baxış və dünyanı bölmək uğrunda mübarizənin təzahürü kimi yanaşırlar. Vurğulanır ki, son dönəmlər ABŞ uzun müddət nəzarət etdiyi əraziləri itirməkdə, Rusiya isə əksinə, öz mövqelərini gücləndirməkdədir. Odur ki, görüş zamanı ABŞ tərəfinin Rusiyanı geri çəkilməyə çalışacağı iddia edilir.

**Gözlənilən görüşü "Şərq"ə dəyərləndirən millət vəkili, DİP sədri Asim Mollazadə bildirib ki, Cenevrədə ABŞ Prezidenti Co Baydenin görüşəcəyi bir neçə dövlət başçısı arasında Rusiya rəhbəri Vladimir Putin də olacaq.** Deputat vurğulayıb ki, Amerikanın "Şimal axını" ilə bağlı Rusiyaya sərt sanksiya tətbiq etməməsi öz-özlüyündə görüş öncəsi müsbət addım idi: "ABŞ hesab edir ki, Rusiya ilə həlli mümkün bir neçə problemin müzakirəsi mümkündür. Söhbət Ukrayna məsələsindən və Suriyadakı proseslərdən gedir. Liderlər arasında görüşün müsbət nəticələnəcəyini düşünürəm. İddia edilir ki, guya, Bayden-Putin görüşü dünyanı bölməyə həsr olunub. Bu, mümkün olan bir şey deyil. Bundan sonra hansısa böyük güclərin dünyanı yenidən bölmək, parçalamaq imkanı yoxdur. Dünyanın müxtəlif regionlarında mövcud olan münaqişələr məhz həmin bölgənin ölkələrinin və xalqların iradəsi ilə həll olunacaq. Böyük dövlətlərin niyyət və istəkləri ilə problemlərin çözülmədiyi göz önündədir. Artıq dünya və reallıqlar dəyişib".

**İsmayıl Qocayev**

## Çin bizi olduğumuz kimi qəbul edir

"Dünyanın ən nəhəng dövlətlərindən biri ilə əməkdaşlıq bizim üçün də sevindiricidir"



**İyunun 2-də Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının sədri Si Cinpin arasında telefon danışığı olub.**

Dialoq zamanı Sədr Si Cinpin hər iki ölkənin ənənəvi dostluğu inkişaf etdirdiyini, əməkdaşlığı dərinləşdirdiyini və qarşılıqlı dəstəyi artırdığını bildirib. Bundan başqa, Sədr Si Cinpin Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini vurğulayıb.

**Politoloq Tofiq Abbasov tərəflər arasında əlaqələri "Şərq"ə şərh etdi:** "Əlbəttə, münasibətlərimizin böyük perspektivi var. ABŞ və onun müttəfiqləri Çinin güclənməsini istəmirlər. Çin isə "Bir kəmər, bir yol" kimi layihələrlə özünə daha çox tərəfdaş qazanmaq və mənfəət əldə etmək istəyir. Əlbəttə, Pekinlə əməkdaşlıq bizim maraqlarımıza uyğundur və konfliktlərə qarışmırıq. ÇXR də başa düşür ki, Azərbaycan adekvat tərəfdaşdır. Ümumiyyətlə, əlaqələrimizin tarixi kökləri var. O dövrdən etibarən münasibətlərimiz süni əngəl olmadan inkişaf edir. Çin bu günü bizi olduğumuz kimi qəbul edir. Əlbəttə, dünyanın ən nəhəng dövlətlərindən biri ilə əməkdaşlıq bizim üçün də sevindiricidir".

**Kənan**

# Siqnallar verilir



### *"Gülənin qaytarılması masada olacaq"*

*İki dünya liderinin - ABŞ Prezidenti Co Baydenlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında gələcək həftələrdə keçiriləcək görüş siyasi gündəmin əsas mövzularındandır. Bir çox ekspertlərin fikrincə, müzakirələr nəticəsində təkcə iki dövlət arasında deyil, həm də qlobal məsələlər həllini tapacaq.*

**Siyasi analitik Samir Hümbətov görüşün nəticələri barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Türkiyə ilə ABŞ uzun illərdir ki, NATO daxilində müttəfiqdirlər. II Dünya müharibəsindən sonra Türkiyə SSRİ-yə qarşı onu müdafiə edəcək yeganə qüvvənin Qərb olduğunu anladı. Buna baxmayaraq, bəzi regional məsələlərdə tərəflərin maraqları toqquşur. Məlum olduğu kimi, Qərb Türkiyəyə S-400-ləri satmadıqdan sonra həmin silahlar Rusiyadan alındı. Əslində isə tərəflər arasında münasibətlər ABŞ-ın PKK-nı dəstəkləməsindən sonra başlandı".

**Analitikin fikrincə, Ankara üçün Moskva ilə münasibətlər daha prioritetdir:** "Bəzi yerlərdə toqquşmalar olsa da, Türkiyə ilə Rusiya strateji müttəfiqdirlər. Məsələn, Qarabağ məsələsində də tərəflər arasında razılaşma yarandı. Türkiyə və ABŞ-ın Rusiyaya qarşı birləşəcəyi ağlabatan deyil. Çünki Rusiya Ankaraya daha yaxındır. Baydenin sərt ritorikası isə göz önündədir".

S.Hümbətov həmçinin müzakirə predmetlərini açıqladı: "Əlbəttə, S-400, PKK məsələləri gündəmə gətiriləcək. Eyni zamanda Fətullah Gülənin qaytarılması barədə də danışılacaq. Bunun siqnalları artıq var. Türkiyə S-400-lərdən imtina etməyəcək və ABŞ-a görə Kreml ilə münasibətləri korlamayacaq. Bundan sonra ABŞ Türkiyədən nəyisə ancaq xahiş edə bilər".

**Kənan**

**"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərindən sonra erməni terrorçularına qarşı anti-terror əməliyyatlara başlanması zəruridir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında MCP-nin sədr müavini, politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq vurğulayıb ki, Azərbaycan Rusiyanın məsuliyyət zonasında erməni silahlı birləşmələrinin**



# Situasiya dəyişəcək

## Azərbaycanın Qarabağdakı erməni silahlı birləşmələrinə qarşı əməliyyata başlaması mümkündür

**çıxarılmasını bir neçə aydan sonra konkret şəkildə tələb edə bilər:**

"Çünki onların Qarabağda varlığı üçtərəfli birgə Bəyanamənin bəndlərinin yerinə yetirilməsinə mane olur, o cümlədən vəziyyəti gərginləşdirir. Fikrimcə, Türkiyə prezidentinin Azərbaycana səfərindən sonra, həmçinin NATO zirvə görüşü, Bayden və Putin danışıqlarından sonra Rusiyaya qarşı Qərb növbəti hərəkətə keçəcək. Bundan sonra Rusiyanın Türkiyəyə daha da ehtiyacı olacaq. Fikrimcə, Azərbaycan da bu əlverişli situasiyadan istifadə edərək, silahlı erməni birləşmələrin ləğvini tələb edəcək. Əgər buna gedilməsə, o zaman Azərbaycanın erməni silahlı birləşmələrinə qarşı əməliyyata başlaması mümkündür".

**M.Əsədullazadə əlavə edib ki, Qarabağda silahlı erməni birləşmələrinin varlığı buradakı separatçıların status məsələsini qabardır:** "Ona görə də zənnimcə, Azərbaycan bu məsələyə son qoyacaq. Hesab edirəm ki, Ağdərə, Xocavəndlə üzbəüz ərazilərdə silahlı erməni postları ləğv ediləcək. Bir faktı qeyd edim ki, artıq Araik Arutyunyanla Nikol Paşinyan düşmən mövqeyə gəliblər. Paşinyan Qarabağdakı silahlıların Ermənistanda dövlət çevrilişinə cəhd etməsindən narahatdır. Ona görə o da belə bir silahlı birləşmələrin ləğvində maraqlıdır. Ermənistanda bu hərbi birləşmələri Robert Koçaryanın silahlı dəstəsi kimi qəbul edirlər. Koçaryan və Sarkisyan məhz Qarabağdakı silahlı erməni birləşmələrinin əli ilə Ermənistanda çevrilişə cəhd edə bilər. Məhz Sarkisyanla eyni blokda olan və Paşinyanın əsas əleyhdarı olan Artur Vanatesyan Xankəndinə gəlib. Bu onu göstərir ki, Koçaryan və Sarkisyan iz azdırmaq üçün Vanatesyanı Xankəndinə göndəriblər. Azərbaycan öz ərazisində olan silahlı erməni birləşmələrinin ləğvinə mütləq nail olmalıdır ki, Ermənistanda Koçaryan və Sarkisyan kimilər yenidən siyasi hakimiyyətə gələ bilməsin".

**Aynurə Pənahqızı**

# Bağlar möhkəmlənəcək

## İki qardaş ölkə də milli ideologiyanın inkişafında maraqlıdır



### AKP ilə YAP arasında əməkdaşlığın dərinləşməsi hər iki ölkənin mənafelərinə xidmət edir

Məlum olduğu kimi hakim Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir. Səfər çərçivəsində YAP-la Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin ilk görüşü AKP sədrinin müavini, sabiq baş nazir Binəli Yıldırımla olub. AKP-nin mərkəzi qərargahında dostluq və səmimilik şəraitində keçirilən görüşdə əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə iki partiya srasında əməkdaşlığa dair niyyət protokolundan irəli gələn vəzifələrlə bağlı ümumi razılıq əldə edilib. Sonrakı gün YAP-ın nümayəndə heyəti Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən də qəbul edilib. Görüşdə diqqətə çatdırılıb ki, dostluq və qardaşlıq əlaqələri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, YAP-AKP münasibətlərində də nümunəvi məcrada dinamik şəkildə inkişaf etməkdədir.

**Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Cavid Osmanov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan və Türkiyə münasibətləri tayıbərabəri olmayan dostluq və qardaşlıq prinsipləri üzərinə qurulub. Deputatın sözlərinə görə, Azərbaycan-Türkiyə dostluğuna bənzər ikinci nümunə dünyada yoxdur:**

"Türkiyə ilə bütün sahələrdə ən yüksək səviyyədə əməkdaşlığımız, əlaqəmiz var. Sadəcə, siyasi-iqtisadi və mədəni deyil, həyatın bütün sferalarında ikili əməkdaşlığımız mövcuddur. Bildiyiniz kimi, mart ayında Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi. Qurultayda ölkə Prezidenti partiya qarşısında yeni vəzifələr qoydu, mühüm tapşırıqlar verdi. Dövlət başçısının təlimatlarına əsasən, Vətən müharibəsindən sonra ölkəmizdə və regionda yaranmış yeni reallıqlara uyğunlaşma prosesi gedir. Cənubi Qafqazın ən böyük siyasi təşkilatı sayılan YAP-ın qardaş ölkənin hakim partiyası ilə əməkdaşlığı dərinləşdirməsi hər iki ölkənin mənafelərinə xidmət edir və müstəsna əhəmiyyət daşıyır. Səfər zamanı mühüm görüşlər keçirildi və AKP ilə niyyət protokolu imzalandı. Bu protokolda milli ideologiyaların inkişafı, birgə sosial layihələrin işlənib hazırlanması perspektivləri, QHT və media qurumları ilə əməkdaşlıq məsələləri nəzərdə tutulur. Bundan sonrakı mərhələdə partiyalararası münasibətlər iki qardaş ölkə arasındakı bağları bir qədər də möhkəmləndirəcək".

**İsmayıl Qocayev**

## Prezidentin köməkçisi beynəlxalq təşkilatları Kəlbəcərdəki hadisəni pisləməyə çağırdı



**"AzTV və AZƏRTAC-ın jurnalistləri Ermənistan qoşunlarının Kəlbəcərdən çıxarkən qəsdən yerləşdirdiyi minanın qurbanı olublar".**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, - Azərbaycan Respublikası Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tvitterdə yazıb.

"Beynəlxalq təşkilatları həmrəyliyə və bu hadisəni pisləməyə çağırırıq. Sirac Abışov və Məhərrəm İbrahimova Allahdan rəhmət diləyirik!", - o qeyd edib.

## İcraçı direktor: "Bu, növbəti terror aktıdır"



**"Bu gün bir qrup şəxsin minaya düşərək həlak olması Ermənistan Respublikası tərəfindən bizim media nümayəndələrinə və mülki şəxslərə qarşı törədilmiş növbəti terror aktıdır".**

Bunu Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

Həlak olan şəxslərin yaxınlarına baş sağlığı verən icraçı drektor bildirib ki, Azərbaycan mediası olaraq bunu qətiyyətlə pisləyir və beynəlxalq təşkilatları hadisəyə hüquqi qiymət verməyə çağırırıq.

# Sorğunun məqsədi aydın görünmür

## "Qarabağ təkcə Şuşadan, Kəlbəcər və Laçından ibarət deyil"

Sosial Tədqiqatlar Mərkəzi əhalinin işğaldan azad olunan torpaqları ziyarət etmək niyyəti ilə bağlı sorğu keçirib. Sorğunun nəticələrinə əsasən infrastrukturun tam bərpa olunması halında 67,1 faiz respondent dərhal, 18 faiz respondent isə bir neçə aydan sonra həmin yerləri ziyarət edəcəyini bildirib. Demək olar ki, hər 10 nəfərdən biri işğaldan azad olunan torpaqları yalnız bir neçə ildən sonra ziyarət etmək niyyətinin olduğunu ifadə edib.

Cəmi 5 faiz iştirakçı dövlətin təhlükəsizlik tədbirlərinin görülməsindən, ərazilərin minalardan təmizlənməsindən sonra ziyarət edəcəyini bildirib. Yaş və aylıq gəlir səviyyəsi artdıqca işğaldan azad olunan torpaqları dərhal ziyarət etmək istəyənlərin çəkisi də artır. Orta peşə-ixtisas təhsilli və ali təhsillilərin ziyarət niyyəti digər təhsil qruplarındakı şəxslərə nisbətdə daha yüksəkdir. Yuxarı Qarabağdan olan respondentlərin 86 faizi işğaldan azad olunan torpaqları dərhal ziyarət etmək istədiyini deyib ki, bu da ən yüksək göstəricidir. Paytaxtda məskunlaşan respondentlərin isə 63,3 faizi eyni cavab variantını seçib. Yaxın gələcəkdə işğaldan azad olunan torpaqlara getmək niyyətini özündə əks etdirən göstəricilərə münasibətdə bölgələr üzrə Quba-Xaçmaz və Lənkəran diqqət çəkir. Ziyarət niyyəti olan 861 respondentin ən çox getmək istədiyi yerlər kimi isə bu ərazilər önə çıxıb - Şuşa (85 faiz), Kəlbəcər (53 faiz) və Laçın (44,5 faiz).

*"Qarabağın hər kəndində, hər oymağında insanlar yaşamalı, qurub yaratmalıdırlar"*



Maraqlı nəticədir. Görəsən əhalinin Şuşa, Kəlbəcər, Laçına olan üstün marağının əsasında nə dayanır - bu ərazilərin daha səfalı olmasımı, amma Qarabağın və təkcə Qarabağ da deyil, ümumən Azərbaycanımızın hər yeri cənnətdir. Və işğaldan azad edilən torpaqlarımızın da hər qarışı bizim üçün əzizdir. Əziz olmalıdır, əslində. Bəlkə Kəlbəcərin müalicəvi əhəmiyyətli mineral suları cəlb edir insanları. Laçının quş qonmaz dağları. Şuşa sevgisinin izahına ehtiyac yoxdur. Ola bilsin o yerlər istirahət zonaları, gəzməli-görməli yerlər kimi daha çox tanınıb. Hansı tərəfdən baxsaq, yenə ortaya suallar çıxır. Ümumiyyətlə, keçirilən sorğuda "işğaldan azad olunmuş ərazilərdən hansı bölgəyə daha çox getmək istəyirsiniz" kimi bir suala nə ehtiyac vardı? Sorğunun məqsədi aydın görünmür. 30 ilə yaxın işğal altında qalmış ərazilərin hər birinə oranın yerli insanları ayaqyalın, başı açıq getməyə də hazırdır. Bu 3 ərazinin bu şəkildə önə çıxarılması Cəbrayıl, Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Xocalı, Xankəndi camaatını incidə bilər.

**Əslən Cəbrayıl rayonundan olan həmkarımız Seymur Verdizadə "Şərq"ə açıqlamasında qeyd etdi ki, Vətənimizi ayrı-seçkilik etmədən, fərq qoymadan bu başından o başına kimi sevməliyik:**

- Şuşa Azərbaycanın incisidir. Buna görə də respondentlərin böyük əksəriyyətinin Şuşanı görmək istəməsi təbiidir. Kəlbəcər də, Laçın da gəzməli, görməli, ziyarət etməli yerlərdir. İnsanların uzun illər işğal altında qalan bu yerlərə can atması təbiidir. Amma mən hesab edirəm ki, biz Vətəni bu başından o başına kimi sevməliyik. Yəni rəsmi təbliğatımız bu istiqamətdə olmalıdır. Mən Cəbrayıllıyam, amma Zərdab da mənə Cəbrayıl qədər doğma və əzizdir. Nə yaxşı ki, cəmiyyətin böyük əksəriyyəti bu cür düşünür. Müasir Azərbaycan gənci bu ruhda böyüyüb. Əgər belə olmasaydı, Zərdabda doğulan gənc heç vaxt görmədiyi Cəbrayıl uğrunda şəhid olmazdı. İşğaldan azad olunmuş torpaqların hər qarışı bizim üçün əzizdir. Qarabağ təkcə Şuşadan, Kəlbəcər və Laçından ibarət deyil. Qarabağın hər kəndində, hər oymağında insanlar yaşamalı, qurub yaratmalıdırlar. Rəsmi təbliğat da məhz bu istiqamətdə olmalıdır. Qarabağda bir qarış torpağı da boş qoymağa haqqımız yoxdur!

**Məlahət Rzayeva**

# Qarabağın azadlığı yeni hərbi şərait yaradıb

*İndi əsas prioritet Azərbaycan Ordusunun Türkiyə modelinə keçməsi ilə bağlıdır*



## Hərbi dialoq bizi daha güclü dövlətə çevirəcək

**Xəbər verdiyimiz kimi iyunun 3-də Bakıda Azərbaycan-Türkiyə 13-cü Yüksək Səviyyəli Hərbi Dialoq başlayıb. İclasda müdafiə sahəsində inkişaf perspektivləri və əsas fəaliyyət istiqamətləri nəzərdən keçirilib.**

Bu arada məlumat yayılıb ki, ”Bayraktar TB2”lərin istehsalçısı olan ”Baykar Makina”nın Azərbaycanda istehsalat bölməsinin açılması ilə bağlı da danışıqlar gedir. Türkiyə hərbi-sənaye kompleksinin nəhənglərindən olan ”Aselsan”ın ölkəmizdə bölməsi artıq var.

**Qardaş ölkə ilə hərbi əməkdaşlıqla bağlı ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev deyib ki, Azərbaycanla Türkiyə arasında olan münasibətlər istənilən sahə üzrə müsbət dinamika ilə inkişaf edir. Ekspertin sözlərinə görə, hazırda iki qardaş ölkə arasında əlaqələr özünün ən pik səviyyəsini yaşayır:** “Təhlükəsizlik, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələri əhatə edən ikitərəfli əməkdaşlıq məsələləri Bakı ilə Ankara arasında hər il mütəmadi keçirilən birgə yüksək səviyyəli hərbi dialoq iclasında müzakirə edilir. Adətən belə iclaslarda hər iki tərəfdən yüksək rütbəli generallar iştirak edirlər. İclaslarda həm əvvəllər qəbul edilmiş qərarların icrası, cari məsələlər, həm də iki ölkənin qarşısında duran birgə hərbi vəzifələr müzakirə olunur. Ələlxüsus, indiki dövrdə, yeni Qarabağın azadlığından sonra yeni yaranmış situasiyada bu cür müzakirələr mühüm əhəmiyyət kəsb edir. Bildiyimiz kimi Azərbaycan hazırda Qarabağda böyük inşaat işlərinə başlayıb. Ağdamda sənaye parkı inşa ediləcək. Hesab edirəm ki, işğala qədərki dövrdə müdafiə sənaye potensialına sahib olan Ağdamda Türkiyə ilə birgə qurulan müdafiə sənayesi müəssisələrinin fəaliyyəti normal olardı”.

*Ə.Verdiyev vurğulayıb ki, ”Aselsan” Bakıda çoxdan fəaliyyət göstərir. ”Baykar Makina”nın Azərbaycana gəlməsini isə ekspert hələ Səlcuk Bayraktarın cənab Prezident tərəfindən qəbul edilməsi zamanı ehtimal olaraq irəli sürüb:* ”Hələki bu məsələlər ehtimal olaraq qalır. Lakin reallığa çevriləcəyi ehtimalı böyükdür və bu təşəbbüslərin həyata keçəcəyinə şübhə etmirəm. Amma hadisələri tələsdirmək lazım deyil. Müzakirə olunan əsas məsələlərdən biri Azərbaycan Ordusunun Türkiyə modelinə keçməsi ilə bağlıdır. Bununla əlaqədar ştat strukturlarının uyğunlaşdırılması və Azərbaycan tərəfindən müharibədə istifadə olunan silah-sursat sistemlərinin alınması, bərpası, birgə layihələrin detallı müzakirəsi ehtimal olunur. Həmçinin, iki ölkənin hərbi qurumları qarşısında duran vəzifələrin müəyyən ediləcəyi də gözlənilir”.

**İsmayıl Qocayev**




## “Azərbaycanlı jurnalistlərin faciəvi ölümü dəhşətli xəbərdir”

ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi bəyanat verib

**ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi Tereza Ribeiro bu gün Kəlbəcərdə Azərbaycan media mənsublarının minaya düşərək həlak olması ilə bağlı bəyanat verib.**

APA-nın xəbərinə görə, bu barədə ATƏT-in saytında məlumat verilib.

Bildirib ki, Azərbaycan Dövlət Xəbər Agentliyi (”Azərtac”) və Azərbaycan Dövlət Televiziyasında çalışan iki jurnalist Kəlbəcərdə bu gün xidməti vəzifələrinin icra edərkən mina partlayışı nəticəsində həlak olublar. AzTV-nin rejissoru Emin Məmmədov daxil olmaqla bir neçə şəxs isə yaralanıb.

”Məhərrəm İbrahimov ve Sirac Abışovun faciəvi ölümü dəhşətli xəbərdir. Onların yaxınlarına və həmkarlarına dərin başsağlığı verirəm”, - deyə Ribeiro vurğulayıb.

ATƏT rəsmisi hüquq-mühafizə orqanlarının məsələylə bağlı cinayət işi açdığını qeyd edərək günahkarların məsuliyyətə cəlb ediləcəyinə ümidvar olduğunu bildirib.

## 84 yaşlı ahıla zülm edənə ömürlük cəza verilməlidir

Novella Cəfəroğlu: “Mən belə məsələlərdə çox qəddaram”



**Xəbər verdiyimiz kimi, bir neçə gündür ki, sosial şəbəkələrdə Gədəbəy kənd sakini, 1934-cü il təvəllüdlü Səkinə Həsənovanın tövlədə bağlanılaraq saxlanılması barədə görüntülər yayılıb.**

Bu görüntülərin yayılmasından sonra Gədəbəy Rayon Polis Şöbəsinin əməkdaşları kəndə gedərək qadının yerini aşkarlayıblar. Ahıl qadının əqli və fiziki sağlamlığının yerində olmamasını müəyyən etdikdən, aidiyyəti qurumlara bu barədə məlumat verildikdən sonra 84 yaşlı ahıl şəxs Göygöl rayon 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə yerləşdirilib. Gədəbəy Rayon Polis Şöbəsindən verilən məlumata görə, qadının tövlədə bağlanılması və zaman-zaman döyülməsi ilə bağlı RPŞ-də cinayət işi başlanılaraq istintaq-əməliyyat tədbirləri həyata keçirilib. Nəticədə Səkinə Həsənovanı tövləyə bağlamaqda şübhəli bilinən qohumu, 1947-ci il təvəllüdlü Qəzənfər Hacıyev barəsində Cinayət Məcəlləsinin 145-ci (Qanunsuz azadlıqdan məhrum etmə) maddəsi ilə cinayət işi başlanılaraq rayon prokurorluğuna göndərilib. Faktla bağlı Gədəbəy Rayon Prokurorluğunda araşdırmalar davam etdirilir.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu hadisə ilə bağlı ”Şərq”ə münasibət bildirib. O qeyd edib ki, ilk növbədə bu cür cinayət törədən şəxslərə ömürlük cəza verilməlidir:** ”Mən belə məsələlərdə çox qəddaram. Düşünürəm ki, həmin hadisəni törətmiş şəxsə ömürlük cəza vermək ən doğrusudur. Təbii ki, bu məsələdə cəmiyyətin də rolu böyükdür. Belə şəxslər insanların qınağına məruz qalarsa, bu kimi hallar təkrarlanmaz. Hesab edirəm ki, həm dövlət, həm də icra hakimiyyətləri tərəfindən bəzi məsələlər tənzimlənməlidir. Əgər belə şəxslərin yiyəsi yoxdusa, onların qocalar evinə yerləşdirilməsinə yardımçı olmaq lazımdır”.

**Aynurə**

# Yollara mina son günlər döşənib

## ASALA daşnaksütyun təfəkkürü Azərbaycana qarşı işə düşüb

Dünən iki jurnalistimiz minaya düşərək həlak olublar. Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və "Azərtac"ın əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşüblər. Bu barədə AzTV-nin əməkdaşı Nigar Etibar məlumat yayıb.

Qeyd olunub ki, baş verən hadisə erməni vandalizminin və düşmənin mülki şəxslərə qarşı törətdiyi cinayətlərin daha bir nümunəsidir.

”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC adından hər iki həmkarımızın ailəsinə dərin hüznlə başsağlığı verir, onlara Allahdan rəhmət diləyirik!”.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli ”Şərq”ə bildirib ki, hadisənin baş verməsi Ermənistanın problemlərin həllinə yönəlik atdığımız addımlara blok qoyulmasına hesablanıb:** ”Həlak olanlar mülki şəxslərdir və informasiya siyasəti ilə məşğuldurlar. Ehtimal etmək olar ki, erməni tərəfi bölgədə terrorçuların fəaliyyətindən istifadə edir. Türkiyə zamanında PKK ilə savaş aparırdı - yolların minalanması minlərlə türk əsgərinin şəhid olması ilə nəticələnirdi. Erməni terror təşkilatları, o cümlədən ASALA daşnaksütyun təfəkkürü Azərbaycana qarşı işə düşüb. Yola partlayıcılar qoymaq PKK ilə eyni dəst-xəttin göstəricisidir. Əminəm ki, bölgələrin minalardan təmizlənməsinə dair proses aparılıb, amma hesab etmək olar ki, yaxın günlərdə həmin bölgədəki yollara minaların döşənməsini həyata keçiriblər. Bununla bağlı bir neçə gün hadisənin şahidi olduq: Azərbaycan ərazisini minalamaq istəyən erməni əsgərləri ələ keçirildi, 6 nəfər saxlanıldı. Bu durum iki məqamı ortaya çıxarır. Birincisi, erməni tərəfi mina xəritəsini dövlətimizə təqdim etmir və mina döşəməyə davam edir. Bunun özü müharibə cinayətidir. İkincisi, beynəlxalq təşkilatlar Azərbaycana qarşı qınayıcı mövqedən çıxış edirdilər. Fransa Prezidenti Emmanuel Makron, Minsk qrupu, Avropa Parlamenti və Avropa İttifaqı bu olanlara cavab verməli, beynəlxalq düşüncə Ermənistan cinayətlərinə fikir bildirməlidir. Daha öncə Xocalıda, Birinci və İkinci Qarabağ müharibəsi dönəmlərində terrorun hər ”üzünü” görmüşdük. Lakin indi ənənəvi müharibənin yox, tamamilə dövlət terrorunun və terrora məruz qalan ölkənin şahidiyik. Ermənistan tərəfi münasibətlərdə terror mərhələsinə keçib”.



**Yeganə Bayramova**



# Rusiya bütün adamlarını parlamentə yerləşdirmək istəyir

## Hədəf koalisiya yaradıb Paşinyanı zərərsizləşdirməkdir

Azərbaycan-Ermənistan sərhədindəki gərginlik qalmaqdadır. Rəsmi İrəvan hər cəhdlə çalışır ki, delimitasiya və demarkasiya prosesini ləngitsin. Əslində Ermənistanda seçkiöncəsi belə addımların atılması elə də təəccüblü deyil. Aydın məsələdir ki, Baş nazir Nikol Paşinyan sərhəddəki prosesləri gərginləşdirməklə hələ də ayaqda olduğunu göstərməyə, həmçinin erməni xalqının diqqətini yayındırmağa çalışır.

Sərhəddəki təxribatlarla bağlı digər iddia isə budur ki, gərginlikləri yaradan tərəf Rusiyadır. Yəni rəsmi Moskva demarkasiya proseslərinə maneə törədib, təxribatlara əl ataraq Paşinyanın seçkilərdə qalib gəlməsini əngəlləmək istəyir.

**Professor, siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev sərhəddəki təxribatların nədən qaynaqlandığı və nə zaman sona çatacağı barədə fikirlərini "Şərq"lə bölüşüb. Analitikin sözlərinə görə, sərhəddə baş verən proseslər iyunun 20-nə qədər davam edəcək:** "Aranı qarışdıran tərəf əsasən Rusiyadır. Çünki Rusiya Paşinyanın yenidən seçilməsində maraqlı deyil. Ona görə də rəsmi Moskva Ermənistandakı parlament seçkilərində 3 qrupla iştirak edir. Həm Robert Koçaryan, həm Serj Sarkisyan, həm də Ara Abramyan. Əsas məqsəd odur ki, onlar parlamentdə səslərin yarıdan çoxunu qazansın və həmin qrupun üçünün koalisiyasını yaratsın. Rusiyanın qurduğu planın məqsədi Azərbaycanı KTMT-yə daxil etməkdir. Belarusla da danışıqlar aparılır. Baxmayaraq ki, hazırda Belarusun da vəziyyəti kifayət qədər gərgindir. Bu ayın 18-də İranda prezident seçkiləri keçirilir. Rəsmi Tehran Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil. Ona görə də İran generallarının İrəvana gəlməsi heç də səbəbsiz deyil".



**C.Nuriyev qeyd edib ki, sərhədlərin delimitasiya və demarkasiyası qanuni şəkildə aparılır:** "Nə Ermənistan tərəfi sərhədlərin müəyyənləşməsindən qaça, nə də Azərbaycan ayrı cür hərəkət edə bilər. Çünki proseslər qanuni şəkildə yerinə yetirilir. Coğrafi en və uzunluqların hamısı dəqiqliklə məlumdur, hərbi xəritələrin üzərində məlumatlar var. Azərbaycan son 30 ildə Ermənistanın həyasızlığı nəticəsində işğal olunmuş torpaqlarımızdan erməniləri çıxarır. Burada qeyri-adi nəsə yoxdur, dövlətimiz hansısa qanunsuzluğu həyata keçirmir. Ermənistanda müəyyən qüvvələr var ki, sərhədlərin müəyyənləşməsində ayrı cür fəaliyyət göstərirlər. Hadisələrin qısa müddət ərzində sonlanacağına inanıram. Azərbaycanın da mövqeyini dəyişməyəcəyi birmənalıdır".

**Yeganə Bayramova**



## "Terrora cavab verilməlidir"

### Millət vəkili jurnalistlərin minaya düşməsinə sərt reaksiya göstərib

**"Kəlbəcərdə, yəni Azərbaycan ərazisində iki jurnalist qardaşımız şəhid oldu. Allah hər ikisinə rəhmət etsin, əzizlərinə səbr diləyirəm".**

"Şərq"in xəbərinə görə, bu barədə millət vəkili, BQP sədri Fazil Mustafa sosial şəbəkədə yazıb. Deputat bildirib ki, düşmənin həmlələrinə eyni tərzdə cavab verilməlidir: "Artıq yetərli deyilmi? Biz bu cür mina partlayışı xəbərlərini ermənilərin yaşadığı hər köşədən almalıyıq. Bizim ərazilərimizdə basdırılmış minaların on qatını Ermənistan ərazisində, on qatını da erməni separatçılarının yaşadığı Azərbaycan ərazisində basdırmalıyıq. Bu vəhşilər durub sizə xəritə verəcəklər? Adamlar durmurlar, hər bir azərbaycanlı qətli bu vəhşi millət üçün bir təsəlli sayılır. Mina terroruna mina terroru ilə də cavab verilməlidir. Bunu bacaran oğullarımız, mütəxəssislərimiz var. Bu millət cavab görməyincə durmayacaq. Terroruna terrorla, minasına mina, yumruğuna yumruqla cavab verilməlidir".

*Qeyd edək ki, dünən saat 11 radələrində Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobili Susuzluq kəndi istiqamətində tank əleyhinə minaya düşüb. Nəticədə 3 nəfər - Sirac Abışov (AzTV telekanalının operatoru), Məhərrəm İbrahimov ("AzərTAC" xəbər agentliyinin əməkdaşı), Arif Əliyev (RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini) həlak olublar. Digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almaqla xəstəxanaya yerləşdiriliblər.*

**İsmayıl**

# Ermənistan minaların xəritəsini verməyəcək

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə insanların həyatı üçün təhlükə yaradan minaların yerlərinə dair Ermənistanın müvafiq xəritələri təqdim etməkdən imtinası ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə (İHAM) dövlətlərarası şikayət göndərib. Qeyd olunub ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtinasının heç bir strateji, hüquqi və ya mənəvi əsasları yoxdur və yeganə məqsəd bölgədə Azərbaycan əhalisinin həyatına qəsd etməkdir.



## Azərbaycan məcburetmə taktikasına keçməlidir

Həmçinin Ermənistanın hərəkətləri azad olunmuş torpaqlarda yaşayan ermənilərin həyatını təhlükə altına qoyur. Biz bir daha Ermənistandan minalanmış ərazilərin xəritələrini və digər müvafiq məlumatları təqdim etməklə beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyi tələb edirik. Ermənistanın bu vəziyyəti davam etdirməsi nəzərə alınaraq Avropa Məhkəməsinin müdaxilə etməyə çağırılıq. Diqqətə çatdırılıb ki, Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular Birgə Bəyanat imzalandığı gündən bəri 120-dən çox insanın həlak olmasına və ya yaralanmasına səbəb olub. Birgə Bəyanat imzalandıqdan sonrakı 200 gün ərzində işğaldan azad edilmiş ərazilərdə təxminən 100 milyon kvadratmetr sahədə 35 mindən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən siyasi analitik Asif Nərimanlı bildirib ki, Azərbaycan mina xəritələrinin alınması üçün bütün hüquqi prosedurlardan istifadə edir. Lakin Ermənistan tərəfi 30 il ərzində həyata keçirdiyi vandalizm siyasətini müharibədən sonra başqa formada davam etdirir:** "Ermənistanın mina xəritələrini verməkdən imtina etməsinin iki səbəbi var. Birincisi, işğaldan azad olunmuş torpaqların mümkün qədər daha gec bərpa edilməsi, insanların ora daha gec qayıtmasıdır. Bu, Ermənistanın məğlub olsalar da, hələ də mövcud olan işğal niyyətindən irəli gəlir. Görünür, situasiyanın dəyişə biləcəyini, azad etdiyimiz torpaqları yenidən işğal etmək imkanlarının yaranacağını düşünürlər. Bu ərazilərin bərpa edilməsini, insanların ora qayıtmasını işğal planlarına maneə hesab edirlər.İkincisi, müharibədən sonra Azərbaycanın itki verməyə davam etməsidir. Bunun xəstə qisas planı olduğu məlumdur. Hətta bir ailənin 5 üzvü Ağdamda minaya düşəndə Ermənistan mediasında "Hələ çox öləcəksiniz" manşetini atmışdılar. Bu, onların nə qədər xəstə xislətli olduğunun nümunəsidir. Ermənistanın mina xəritələrini verməkdən sona qədər imtina edəcəyi aydındır. Müharibədən ötən müddətdə sərgilədikləri mövqe də bunu göstərir. Burada yeganə yol beynəlxalq ictimaiyyətin Ermənistana təzyiq etməsidir. Azərbaycanın ikinci dəfə Avropa Məhkəməsinə şikayət göndərməsi rəsmi Bakının hüquqi yollarla Ermənistanın terror fəaliyyətinin qarşısını almaq istəyidir. Lakin təəssüf ki, beynəlxalq ictimaiyyət 30 illik işğal dövründə Ermənistana təzyiq etmədiyi kimi, indi də mina xəritələrinin verilməsinə laqeyd münasibət bəsləyir, əvəzində Azərbaycandan erməni diversantların qaytarılmasını tələb edirlər".

*A.Nərimanlı qeyd edib ki, dünyanın ikiüzlü olduğunun növbəti dəfə şahidi oluruq:* "Son olaraq jurnalistlərin Kəlbəcərdə minaya düşərək şəhid olması faktı bu ikiüzlülüyü bir daha ortaya çıxardı. Azərbaycanda kiçik hadisəni belə şişirdərək, "söz azadlığının pozulması", "insan haqlarının tapdanması" kimi təqdim edən beynəlxalq təşkilatlar xidməti vəzifələrini yerinə yetirərkən erməni terrorunun qurbanı olan jurnalistləri görməzdən gəlirlər. Bu ikiüzlü münasibət davam edəcək, I Qarabağ müharibəsində də, II Qarabağ müharibəsində də bunu gördük. Azərbaycan beynəlxalq hüquq çərçivəsində addımlarını davam etdirməklə mina xəritələrinin verilməsi üçün Ermənistana qarşı məcburetmə taktikasına keçməlidir. Bu, həm masada, həm də hərbi sahədə olmalıdır. Sərhəd xəttini pozan erməni hərbçiləri saxlamaqla onların əvəzinə mina xəritələrinin verilməsini tələb edə bilərik, yaxud digər analoji addımlar atıla bilər. Çünki Ermənistan yalnız güc yolu ilə anlayır".

**Aynurə Pənahqızı**

# 4 iyun Rusiyanın senarisi idi

**Tariximizin qara səhifələri, milli dövlətçiliyimizin sınağa çəkilən anları, xalqımızın ağrı-acıları, məhrumiyyətlər içərisində yaşadığı günlər çox olub. Ancaq 1993-cü ilin iyun ayının əvvəllərində öz kuliminasiya nöqtəsinə çatmış hakimiyyət böhranı, siyasi böhran milli tariximizin ən ağır səhifələrindəndir. Çünki o günlər Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə idi. Həmin günlər xalqımız qardaş qanı tökmək üçün hazırlanmışdı. Azərbaycan xanlıqlara parçalanmanın bir addımlığında idi. Bütün bunları isə senari kimi ardcıllıqla hazırlayan bədxahlar idi.**

4 iyun 1993-cü il Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verib. S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olub, hər iki tərəfdən 35 nəfər həlak olub. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülüblər. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırıb, ölkə vətəndaş müharibəsi astanasına gəlib.

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu 4 iyun hadisələri ilə bağlı "Şərq"ə danışıb.**

Politoloq baş verənlərin senarisini kimlərin hazırladığına dair maraqlı faktları açıqlayıb: "4 iyun 1993-cü il tarixində başlayan və sonda hakimiyyət dəyişikliyi ilə nəticələnən proses postsovet məkanında bir çox ölkədə gedən ümumi prosesin tərkib hissəsi



*"Hadisədən 28 il keçdikdən sonra və hər il 4 iyun olanda geridə yaşananları müzakirə edirik. Fikrimcə, bu müzakirənin özü yanlışdır. Çünki tarixi müzakirə etməklə keçmişdə qalmış oluruq"*

idi. Yəni 1991-ci il sonunda SSRİ dağıldı və milli azadlıq hərəkatı dalğasında postsovet ölkələrinin bir hissəsində milli hakimiyyətlər quruldu. Onlar da milli dövlətçiliyin möhkəmlənməsi üçün yol aldılar. Əlbəttə, milli azadlıq hərəkatı dalğasında hakimiyyətə gələn insanların çoxu təcrübəsiz idi. Ümumiyyətlə, SSRİ dövlət idarəçiliyi artıq işə yaramırdı, hər şeyə sıfırdan başlamaq lazım idi. Amma müvafiq modellər də yox idi. Demək olar ki, Mərkəzi Asiya ölkələri və Rusiya xaric baltikyanı ölkələrə toxunulmurdu. Məlum idi ki, onlar heç vaxt SSRİ-nin tərkibinə qayıtmayacaqdılar, nə də Rusiya onları öz təsir dairəsinə sala biləcəkdi. Çünki NATO, Avropa Birliyi, Qərb ölkələri baltikyanı ölkələri təsir dairəsinə salmaqda maraqlı idi. Sonda bu proses baş verdi. Rusiya isə həmin dövrdə postsovet ölkələrində gedən milli dövlətçilik quruculuğunun qarşısını almaq və onları təsir dairəsində saxlamaq üçün müvafiq senarilər hazırlayırdı. Bu senarilər əslində 4 ölkədə baş verdi".

**Ə.Oruclu qeyd edib ki, Azərbaycanda 1993-cü il hadisələri hərbi və siyasi komponentlərlə paralel olaraq baş verdi:** "1993-cü ilin iyununda hərbi güclərdən istifadə olundu. Həmin güclər SSRİ dağılanda artıq Rusiya tərəfindən Azərbaycan dövlətinin ərazisində yerləşdirilib, silahlandırılmışdılar. Konkret olaraq Surət Hüseynov və Əlikram Hümbətovu nəzərdə tuturam. Bu qiyamçı dəstə birmənalı olaraq Rusiyanın senarisini icra edirdi. Sadəcə olaraq Azərbaycanda, eləcə də Gürcüstanın özündə senari pozuldu. O zaman Gürcüstanda hərbi şura yaradıldı və həmin şuraya Eduard Şevardnadze rəhbərlik etməyə başladı. Rusiya Azərbaycanda qiyama start verməklə Elçibəy hakimiyyətinin devrilməsinə səbəb oldu. Bununla da hakimiyyətə Heydər Əliyev gəldi. Belarus və Ukraynada isə bu proses bir qədər dinc və parlament yolu ilə həyata keçirildi. 1994-cü ildə Belarus Parlamentinin sədri Stanislav Şuşkeviç və Ukrayna prezidenti Leonid Kravçuk kənarlaşdırıldı və Rusiya onların yerinə daha loyal adamları gətirdi".

**Kreml istəməzdi ki, milli azadlıq hərəkatı dalğasında hakimiyyətə gəlmiş şəxslər hakimiyyətdə qalsınlar**

*Analitikin sözlərinə görə, Rusiya başa düşürdü ki, postsovet ölkələrində başlanan milli dövlət quruculuğu prosesi gedən dövlət Rusiyadan uzaqlaşacaqlar:* "Onlar Rusiyanın geosiyasi rəqibləri ilə daha yaxından ünsiyyət quracaqdılar. Bununla da Rusiya faktiki olaraq bu ərazilərə siyasi nəzarəti itirmiş olacaqdı. Ona görə də 4 iyun hadisələri bu səbəbdən baş verdi. Rusiyada heç cür qəbul edə bilməzdilər ki, milli azadlıq hərəkatı dalğasında hakimiyyətə gəlmiş şəxslər hakimiyyətdə qalsınlar. Ona görə də daha çox köhnə sovet məmurları, SSRİ təcrübəsi keçmiş siyasətçilər Rusiya üçün əlverişli idi. Rusiya Azərbaycandakı bölgələrə təsir etməklə bizi öz təhdidi altında saxlayırdı. Hətta hakimiyyət dəyişdikdən sonra belə münaqişə davam etdi. Rusiya bu bölgələri öz nəzarətində saxlamaq üçün bu addımları atmışdı. İndi müxtəlif iddialar var. Məsələn, bir çoxları deyir ki, guya, Elçibəy hökuməti qalsaydı, yaxşı olacaqdı? Bir çoxları daha pis olacağını, digərləri isə yaxşı olacağını söyləyirlər. Bunu indi söyləmək çətindi, çünki tarix belə müqayisələri sevmir. "Olsaydı" kimi mülahizələr real siyasətlə əlaqəli deyil. Hadisədən 28 il keçdikdən sonra və hər il 4 iyun olanda geridə yaşananları müzakirə edirik. Fikrimcə, bu müzakirənin özü yanlışdır. Çünki tarixi müzakirə etməklə keçmişdə qalmış oluruq. Lakin indi gələcəyə baxmaq lazımdır, yəni nə etməliyik ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tam təmin edək. Bu mənada düşünürəm ki, keçmişi tarixçilərin öhdəsinə buraxmaq lazımdır. Çünki siyasətçilər bu mövzunu müzakirə edəndə çoxlu mübahisələr çıxır. 4 iyun hadisələrinə dair dayanmayan müzakirələrin səbəblərindən biri odur ki, həmin dövrdə hakimiyyətdə olmuş və hakimiyyəti itirmiş şəxslər bu gün də Azərbaycan siyasətində aktualdırlar. Bu mənada hər kəs çalışır ki, öz həqiqətini cəmiyyətə aşılasın. Hər halda irəliyə baxmaq lazımdır. Düşünürəm ki, tarixdə qalmaq keçmişdə qalmaq deməkdir".

**Yeganə Bayramova**

## Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür

"Bu, hansısa xarici dövlətin ölkə ərazisində hərbi baza yaratmasını qadağan edir"



**Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan bir neçə həftə sonra Azərbaycana gələcək.**

O, səfər çərçivəsində həm də Şuşada olacaq. İddialar səsləndirilir ki, Şuşada Türkiyənin hərbi bazasının yaradılması da gündəmdə olacaq.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli isə "Şərq"ə açıqlamasında bu variantı istisna etdiyini dedi:** "Əlbəttə, səfər qarşılıqlı əməkdaşlıq, Qarabağdakı yendənqurma işləri, geostrateji dinamikanın müəyyənləşməsi baxımından çox əhəmiyyətlidir. Şübhəsiz ki, bundan sonra hərbi əməkdaşlığımız daha da güclənəcək. Amma nəinki Şuşada, digər yerlərdə də Türkiyənin hərbi bazasının yaradılması aktual deyil. Çünki Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və bu, hansısa xarici dövlətin ölkə ərazisində hərbi baza yaratmasını qadağan edir".

**Kənan**

# İki mindən çox əcnəbi sözün izahı verilib

*"Yeni alınma sözlər lüğəti" böyük marağa səbəb olacaq*

Azərbaycan Dövlət Tərcümə Mərkəzi professor Qulu Məhərrəmlinin "Yeni alınma sözlər lüğəti"ni nəşr edib. Kütləvi tirajla çap edilmiş və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş lüğətdə son 25-30 ildə ana dilimizin leksik fonduna daxil olmuş və müxtəlif sahələrdə, o cümlədən ictimai-siyasi, iqtisadi, sosial-mədəni, elmi-texniki, texnoloji və s. sahələrdə gedən proses və tendensiyaları əks etdirən iki mindən çox əcnəbi sözün izahı verilib.




Vaxtilə dilimizin lüğət fondunda olan və yeni şəraitdə "hərəkətə" gələrək fərqli semantika ilə çıxış edən alınma leksik vahidlərin izahına da lüğətdə yer verilib.

Müəllif lüğət üçün illüstrasiya materialı olan alınma sözləri, əsasən dövri mətbuatdan, televiziya və radio verilişlərindən, canlı danışıq və kütləvi çıxışlardan, bədii tərcümə kitabları və elmi-kütləvi nəşrlərdən, reklam və elanlardan, internet resursları, informativ bloqlar və s. mənbələrdən seçib.

Kitabın elmi redaktoru, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərov "Yeni alınma sözlər lüğəti"ni leksiqoqrafiya sahəsində ciddi addım və son illərdə bu qəbildən olan ən mükəmməl əsərlərdən biri kimi qiymətləndirib.

*Xatırladırıq ki, professor Qulu Məhərrəmli jurnalistika ilə yanaşı, elmi fəaliyyətlə də məşğuldur. O, bir sıra monoqrafiya və dərsliklərlə yanaşı, "Kino, televiziya, radio terminləri" (2002), "Mediada işlənən alınma sözlər" (2008), R.İsmayılovla birgə hasilə gətirdiyi "Məktəblinin alınma sözlər lüğəti" (2014), "Azərbaycan dilinin frazeologiya lüğəti" (2015), "Məsəllər, deyimlər. Etimoloji lüğət" (2019) kimi izahlı lüğətlərin müəllifidir.*

**Jalə Bədirova**








# Dünya görsün!

## Erməni vandalizmi jurnalistlərin qətlinə səbəb oldu

Azərbaycanda jurnalistlər minaya düşüb. 4 iyun 2021-ci il tarixdə saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının əməkdaşları və xəbər agentliklərinin əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - Sirac Abışov (AzTV telekanalının operatoru), Məhərrəm İbrahimov ("AzərTAC" xəbər agentliyinin əməkdaşı), Arif Əliyev (RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini) həlak olub, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib. Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin ediləræk, digər prosessual hərəkətlər yerinə yetirilib. Faktla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanılıb.




Hazırda intensiv istintaq-əməliyyat hərəkətləri həyata keçirilir. Daxili İşlər Nazirliyi (DİN) və Baş Prokurorluq jurnalistlərin minaya düşməsi faktını təsdiqləyib. Baş vermiş hadisə ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı çox kədərləndiyini bildirib. Onun sözlərinə görə, bu, Ermənistanın mülki şəxslərə qarşı cinayətlərinin, insanlığa qənim kəsilmiş erməni terrorunun bir davamıdır: "Erməni hərbi təxribatı nəticəsində həlak olmuş mülki şəxslərə də qanunvericiliyə əsasən şəhid statusu verilir. Xidməti vəzifələrini yerinə yetirərkən həlak olan Məhərrəm İbrahimov, Sirac Abışov və Arif Əliyevə də şəhid statusu veriləcək. Hər üç şəhidimizə Allahdan rəhmət, doğmalarına səbr diləyirik!".

**AzTV QSC-nin sədri Rövşən Məmmədov bildirib ki, bu təkcə Azərbaycan mediasına deyil, dünya mediasına qarşı yönəlmiş bir terror aktıdır:** "Biz bu hadisəni qəti şəkildə pisləyirik. Bu təkcə Azərbaycan jurnalistikasına deyil, bütün dünya mediasına yönəlmiş terror aktıdır. Hesab edirik ki, dünya ictimaiyyəti bu hadisəyə öz layiqli qiymətini verməlidir. Allahdan həmkarlarımıza rəhmət, ailələrinə səbr diləyirik".

Hadisə ilə bağlı bir sıra dövlət qurumları və təşkilatlar bəyanat yayıblar. Milli Televiziya və Radio Şurasının hadisə ilə bağlı yaydığı bəyanatda bildirilib ki, azad olunmuş ərazilərdə Ermənistan tərəfindən işğal dövründə yüz mindən artıq mina yerləşdirilib. Qeyd olunub ki, indiyə qədər onlarla mülki şəxs minaya düşərək həlak olub və ya yaralanıb. Ermənistan isə minalanmış ərazilərin xəritələrini təqdim etmir. Milli Televiziya və Radio Şurası bəyanatda dünya ictimaiyyətini, beynəlxalq təşkilatları Azərbaycanın minalanmış ərazilərinin xəritələrini təqdim etməsi üçün Ermənistana çağırışlar etməyə dəvət edib.

Daha bir bəyanatı Ombudsman yayıb. Bəyanatda vurğulanıb ki, Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular 2020-ci ilin 10 noyabr tarixində üçtərəfli bəyanatın imzalandığı gündən bəri 120-dən çox insanın həlak olması və yaralanması ilə səbəb olub. Ermənistan siyasi və hərbi rəhbərliyinin vaxtilə işğal altında saxladıqları bu ərazilərə basdırılan minaların xəritələrinin açıqlanmasından imtina etmələri, hətta Ermənistan ordusunun həmin ərazilərdən çıxarkən xüsusilə mülki ərazilərə işarələnməmiş minaları basdırması, son günlərə qədər təxribat diversiya qrupları vasitəsilə yeni minaların basdırılmasına cəhd etməsi onların daha çox insan tələfatına yol açmaqda və regionda yeni münaqişə ocaqlarının yaradılmasında maraqlı olduğunu göstərir: "Ölkə Ombudsmanı olaraq bu barədə narahatlığımızı dəfələrlə beynəlxalq insan hüquqları qurumlarına bildirərək, insan tələfatının qarşısının alınması məqsədilə Ermənistan rəhbərliyi qarşısında müvafiq tələblərin qoyulması ilə bağlı müraciətlər etmişik. Təəssüflə qeyd etmək istərdim ki, mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana hər hansı bir beynəlxalq təzyiqin göstərilməməsi hər gün daha bir günahsız insanın həyatını itirməsinə səbəb olur. Hesab edirik ki, aidiyyəti beynəlxalq insan hüquqları qurumları baş verən bu insan hüquqları pozuntularına etinasız yanaşmamalı və mandatları çərçivəsində müvafiq addımları atmalıdırlar. Bir daha aidiyyəti beynəlxalq insan hüquqları təşkilatlarına müraciət edərək, baş verən bu insan hüquqları pozuntusuna etinasız qalmamağa, mandatlarından irəli gələn tələblərə məsuliyyətlə yanaşaraq Ermənistan siyasi və hərbi rəhbərliyini cinayət əməllərindən çəkindirməyə çağırırıq. Ombudsman təsisatı olaraq Ermənistan siyasi və hərbi rəhbərliyinin insan hüquqlarının kobud pozuntusu ilə nəticələnən bu və digər ağır cinayət əməllərinin ifşası və onların ədalət mühakiməsinə cəlb olunması istiqamətində fəaliyyətimizi davam etdirəcəyik".

*Xarici İşlər Nazirliyi də hadisə ilə bağlı bəyanat yayıb. Məlumatda bildirilib ki, Azərbaycan tərəfi Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərində məqsədli şəkildə və geniş miqyasda minalar basdırması məsələsini davamlı şəkildə beynəlxalq müstəvidə qaldırır:* "Kəlbəcərdə baş verən bu hadisə bir daha onu göstərir ki, bu ərazidəki minalar Ermənistan tərəfindən, Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geri çəkilmə mərhələsində məqsədli şəkildə yerləşdirilib. Məqsəd isə Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaqdır. Xatırladırıq ki, bir müddət öncə Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq, ərazidə yolların minalanmasına yönəlmiş təxribat törədərkən Ermənistan silahlı qüvvələrinin bir qrupu saxlanılıb. Bu da bir daha onu göstərir ki, Ermənistan tərəfi həm hərbi, həm də mülki şəxslərin həyatı və təhlükəsizliyinə ciddi təhlükə yaratmaqda davam edir, beləliklə də bölgədə vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistanın bu davranışı regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir. Mülki azərbaycanlıların öz vəzifə borclarını yerinə yetirərkən mina qurbanına çevrilməsinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşür. Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa və Ermənistandan beynəlxalq hüquq qarşısında üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməsini tələb etməyə çağırırıq. Azərbaycan öz tərəfindən sülhü və təhlükəsizliyi təmin etmək üçün bütün müvafiq, o cümlədən lazımi hüquqi tədbirləri görəcəkdir".

**Tanınmış jurnalist Afət Telmanqızı "Şərq TV"-yə açıqlamasında bildirib ki, bu hadisə onu çox kədərləndirdi.** O qeyd edib ki, bu, ermənilərin Azərbaycana qarşı apardığı yeni müharibənin nəticəsidir: "Çünki minalanmış ərazilərin xəritələrinin bugünədək təqdim olunmaması məhz belə hadisələrə gətirib çıxarır. Bilirsiniz ki, Azərbaycan ikinci dəfə Avropa Məhkəməsinə mina xəritələrinin verilməsi ilə bağlı müraciət etdi. Mina xəritələrinin verilməməsinin nəticəsidir ki, bu gün belə hadisələr baş verir və Azərbaycan itkilərə məruz qalır. Bu onu göstərir ki, Ermənistan faktiki olaraq müharibəni dayandırmayıb. Ermənistan mina xəritələrini verməməklə, çox sayda insanların ölümünə səbəb olur. Bugünədək 120-dən çox insan erməni minalarının qurbanı olub. Bunların içərisində mülki şəxslər, hərbiçilər, təəssüflər olsun ki, həmkarlarımız da var. Çox güman ki, bunlar yeni basdırılan minalardır. Bəlkə də ola bilsin ki, yanılıram. Hər bir halda bu, ermənilərin yeni vandalizminin bir nümunəsidir. Azərbaycana qarşı apardığı terror aktıdır. Bu barədə təcili olaraq beynəlxalq media təşkilatlarına yazmaq və onlara erməni vəhşiliyinin nümunələrini göstərmək lazımdır".

**Hadisə ilə bağlı "Şərq"ə açıqlama verən siyasi şərhçi Azər Həsrət bildirib ki, bu hadisə Ermənistanın hədəfinin hər zaman dinc insanlar olduğunu bir daha göstərir:** "Acı xəbərdir, əlbəttə. Bu, bir daha göstərir ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi sona çatdırılsa da, onun nəticələrini aradan qaldırmaq elə də asan olmayacaq. Ermənistanın hədəfi həmişə dinc insanlar olub. Ona görə də hər yerə mina döşəyiblər ki, mümkün qədər çox dinc insan ölsün, yaralansın. Təbii ki, belə bir durum varkən bizim də diqqətli olmağımız lazımdır. O torpaqlara səfər edən hər kəs bilməlidir ki, izn verilən xətdən yarım addım belə kənara çıxılarsa, çox ağır faciə baş verə bilər. Şəxsən özüm də mart ayında işğaldan azad edilmiş Ağdama getmişdim. Orada yalnız bizi müşayiət edən əsgərlər və polislərin göstərdiyi yerlərdə hərəkət edib bir addım belə kənara atmırdıq. Nə etmək olar? Düşmən torpaqlarımızı minalayıb, minaların xəritəsini də vermir. Yalnız ehtiyatlı davranmaqla özümüzü qoruya bilərik".

**"Yeniçağ.az"ın reportyoru Səxavət Məmməd "Şərq"ə açıqlamasında qeyd edib ki, jurnalist peşəsi hər zaman ən təhlükəli, riskli peşələrdən biridir:** "Hər il müxtəlif səbəblərdən jurnalistlər peşə fəaliyyətini həyata keçirərkən ya həlak olur, ya da öldürülürlər. Bunlarla yanaşı çoxlu sayda jurnalist sui-qəsdlərin də qurbanı olur. Azərbaycan 30 ildən çox bir zamanda müharibə şəraitində olsa da, müharibə (hərbi) jurnalistikası o qədər də inkişaf etməyib. Beynəlxalq aləmdə müharibə jurnalistləri barədə belə bir deyim var: "Müharibə jurnalistləri əsgərlər kimidir, gedəcəkləri tarix bəllidir, dönəcəkləri tarix yox". Müharibə vaxtı da Azərbaycan jurnalistləri həyatlarını təhlükəyə ataraq, peşə fəaliyyətlərini həyata keçirirdilər. Nəticədə yaralananlar da oldu. Düzdür, ən sonda xarici jurnalistlərlə yerli mətbuat işçiləri arasında fərq qoyuldu. Onlar daha ön plana çıxarıldı. Ancaq ən qaynar nöqtələrdə xarici jurnalistlər yox, məhz yerli jurnalistlər fəaliyyət göstərdilər. Hər bir halda, həmkarlarımız xidmətdə olarkən həlak olublar. Müharibə bitsə də, müharibənin fəsadları nəticəsində həyatlarını itiriblər. Onlara statusun verilməsi doğru olardı. Həmkarlarımıza rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm".

**Aynurə Pənahqızı**



# Xəstələrin gözləri çıxarılır

## *Dəhşəti əks etdirən fotolar yayıldı*

Hindistanda yayılan ölümcül "qara göbələk" göz xəstəliyi artıq Türkiyə sərhədinə çatıb. Bu barədə yerli mediada qorxunc xəbərlər verilir. Məlumdur ki, son aylarda Hindistanda koronavirusa yoluxmuş və hazırda müalicə altında olan minlərlə insanda ağır göz xəstəliyi - "qara göbələk" aşkarlanır. Bu xəstəliyə yaxalananların həyatda qalmaq şansı 100-də 50-dir. Xəstələrin 80 faizinin təcili əməliyyata alınması zərurəti yaranır. Əməliyyat otaqlarında çəkilmiş fotolar isə dəhşəti bütün çılpaqlığı əks etdirir. "Qara göbələk" göz xəstəliyi tibdə mukprmikoz adlanır. Xəstəliyin dərəcəsindən asılı olaraq bəzilərinin hər iki gözü, bəzilərində isə yalnız bir göz çıxarılır. Bir gözü çıxarılanlar şanslı hesab edilir. Göz xəstəliyinin yayılmasına koronavirusun səbəb olduğu bildirilir.



Mütəxəssislər bu fikirdədir ki, koronavirusa yoluxmuş insanın orqanizmi zəiflədiyindən "qara göbələk" xəstəliyi özünü büruzə verir. Xüsusilə də şəkər xəstələri risk qrupundadırlar. Normalda şəkərli diabet xəstələrində görmə qabiliyyətinin zəifləməsi baş verir. Şəkər xəstəliyi, üstəgəl bir də koronavirus "qara göbələy"ə yaxalanma ehtimalını artırır. Qəribə burasıdır ki, göz xəstəliyi koronavirusdan sağaldıqdan 12-18 gün sonra ortaya çıxır. Koronavirusdan qurtulduqlarını zənn edən insanlar təkrar xəstəxanaları doldurur. Hindistanda bugünədək "qara göbələk" xəstəliyindən 200-dən artıq insan vəfat edib. Daha bir qorxulu xəbər Türkiyənin cənub-şərq qonşusu İraqdan gəlib. "Milliyet.com" yazır ki, İraqda da "qara göbələk" xəstəliyindən ilk ölüm faktı qeydə alınıb. İraqın vilayət mərkəzi Nasiriyyədə vəfat etmiş bir nəfərdə "qara göbələk" infeksiyası aşkarlanıb. Türkiyəyə qonşu ölkədə bu xəstəliyin yayılmağa başlaması həyəcan təbili çalmağın zamanı gəldiyinə bir işarədir.

### Adil Qeybulla: "Hindistan ştammı lokallaşmasa, yenidən dünya dəhşətli pandemiya ilə üz-üzə qalacaq"

Göz xəstəliyinin dünyada geniş yayılma ehtimalı nə qədərdir? Azərbaycan hansı tədbirləri görməlidir?

**Dəhşətli xəstəliklə bağlı "Şərq"ə danışan Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, koronavirusun Hindistan ştammının ağır olduğu məlumdur:**

- Bu, koronavirusun mutasiyaya uğramış ştammıdır, həm də ikili mutasiyadır, ona görə də çox ağır fəsadlarla müşayiət olunur. Hindistandakı vəziyyətin ağırlığı oradan gələn xəbərlərdə, yayılan fotolarda görünür. Hələ ilk vaxtlarda mütəxəssislər bu fikirdə idi ki, mutasiyaya uğramış ştamm geniş yayılmağa başlasa, bu, yeni bir pandemiyanın başlanğıcı olacaq. Və artıq 4-cü dalğa hesab ediləcək. Alimlər hazırda Hindistan ştammının yayılıb-yayılmayacağını müşahidə edir. Gözləyirlər ki, görək yayılacaqmı, yoxsa lokallaşacaqmı. Amma gözləmək lazım deyil. Virusu lokallaşdırmaq üçün təcili və təxirəsalınmaz tədbirlər görülməlidir. Hazırda dünyanın bir çox ölkələrində, o cümlədən də Azərbaycanda, Türkiyədə pandemiyanın sonuna doğru gedilir. Yoluxma sayı hər gün aşağı düşür, karantin rejimində yumşalmalar aparılır. Hindistan ştammı lokallaşmasa, yenidən dünya dəhşətli pandemiya ilə üz-üzə qalacaq. Dünya dövlətləri birləşib virusun lokallaşmasına yardım etməlidir. Koronavirus pandemiyasından yorğun düşmüş ölkələr üçün yeni - ikinci bir pandemiyanı qaldırmaq çox çətin, ağrılı proses olacaq.

**"Qara göbələk" göz xəstəliyinə gəlincə, A.Qeybulla bu xəstəliyin immun sistemi zəifləmiş insanlarda baş qaldıra biləcəyini dedi:**

- Hindistanda əhalinin immuniteti xeyli zəifdir. Göbələk xəstəlikləri zəif orqanizmlərdə daha sürətlə yayılır və bunun üçün rütubətli mühit münbit şəraitdir. Belə şəraitdə göbələklər çoxalır. Virusun mütasiya etməsi də belə halların baş verməehtimalını artırır. Virus mutasiyaya uğrayırsa, hansısa xəstəliklərin, o cümlədən də göbələk xəstəliyinin yayılması mümkündür və gözləniləndir. Göbələk xəstəlikləri gündəlik həyatımızda onsuz da var. Lakin "Covid-19" virusuna yaxalanmış orqanizmdə zəifləmə, immunitetin aşağı düşməsi baş verdiyindən digər xəstəliklərin yaranmasına yol açılır. Məsələn, ağ ciyər xəstəliyi, digər göbələk xəstəlikləri yarada bilir. Göbələk ağır xəstəlikdir və ondan qurtulmaq o qədər də asan deyil. Məhz gözlərdə yaranması isə göbələklərin daha çox dəriyə və selikli qişaya düşməsiylə bağlıdır. Bu xəstəliyin yayılmasının qarşısının alınması üçün mütləq qabaqlayıcı tədbirlər görülməlidir.

**Məlahət Rzayeva**



## Kəlbəcərdə həlak olan media nümayəndələrinin nəşi ailə üzvlərinə təhvil verilib

**Kəlbəcərdə minaya düşərək həlak olan Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimovun və Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin nəşi yaxınlarına təhvil verib.**

APA-nın yerli bürosunun məlumatına görə, onların nəşi müayinə olunması üçün Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Gəncə şəhər şöbəsinə gətirilmişdi.

*Onların bu gün torpağa tapşırılacağı ehtimal olunur.*

## Şəhid jurnalistlərin anım mərasimi keçirilib



**Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olan Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və 1982-ci il təvəllüdlü Azərtac İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Azərbaycan Televiziyasında anım mərasimi keçirilib.**

Qeyd edək ki, dünən Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və 1982-ci il təvəllüdlü Azərtac İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olublar.

Həmin şəxslər işğaldan azad olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış yaşayış məntəqələrinin çəkilişini həyata keçirirdi.

# Ermənistanda qiyamət qopub

## Üst-üstə qalanan əsgər cəsədləri ölkəni ayağa qaldırdı

**İrəvandakı morqda çəkilmiş fotolar ölkəni ayağa qaldırıb. Türkiyənin "Milliyyet. com" saytında yer alan xəbərdə bildirilir ki, morqda əsgər cəsədləri üst-üstə qalanıb. Fotoların yayılmasıyla əsgər ailələri etiraz aksiyası keçirib yolu kəsiblər. Məlum olduğu kimi Azərbaycan Ordusu erməni terrorçuların sərhədi keçmək cəhdinin qarşısını alıb.**

Məlum hadisə Ermənistanda da çaxnaşmalara səbəb olub, rəsmi İrəvan isə morqda çəkilmiş görüntülərə görə əsgər ailələrindən üzr istəyib. Ermənistan Səhiyyə Nazirliyinin rəsmisi Anahit Avanesyan 44 günlük Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən döyüşərək həlak olmuş əsgərlərin cəsədlərinin üst-üstə qoyulduğunu göstərən fotolara görə üzr dilədi. Əsgərlərin ailələrinə səslənən A.Avanesyan cəsədlərin və cəsəd parçalarının tibbi müayinə üçün daşınması və saxlanması müddətində xətalara yol verildiyini etiraf edib. Fotolardan görünür ki, əsgər cəsədləri və cəsəd parçaları plastik torbalara yığılıb. Bu fotolar Ermənistanda zəlzələ effekti yaradıb. Tibbi ekspertiza əməkdaşları işdən çıxarılıb, prokurorluq istintaqa



başlayıb. Əsgər ailələri isə etiraz aksiyalarına başlayıb. Etirazçılar İrəvanın Heratsi prospektində yolu bağlayıblar. Əsgər yaxınları 200-dən artıq cəsədin sənaye tipli soyuducular da daxil olmaqla müxtəlif yerlərdə gizlədilərək saxlandığını deyir. Rəsmi olaraq Ermənistan 44 günlük müharibədə 3 min 29 əsgərin həlak olduğunu açıqlayıb, itkinlər barədə isə hələ də rəsmi açıqlama verilmir.

**Məlahət**

## “Ermənistan yenə qətliam etdi"

Fulya Öztürk: “İki əməkdaşımızı itirdiyimiz üçün çox pis olmuşam”



**”Ermənistan yenə qətliam etdi. İki günahsız insanı həyatdan qopardı”.**

Bu barədə ”CNN Türk” televiziyasının reportyoru Fulya Öztürk Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olmaları barədə danışan zaman bildirib.

**Jurnalistin sözlərinə görə, onlar Vətən müharibəsi zaman Ermənistanın etdikləri qətliamı, zülmü günlərcə dünyaya çatdırdılar:**

”Nə yazıq ki, iki sevdiyim, çiyin-çiyin çalışdığım Məhərrəm İbrahimov və Sirac Abışov ermənilər tərəfindən öldürüldü”.

*O bildirib ki, Qarbağda döyüşlər zamanı Azərbaycan əsgərləri bizə davamlı bildirdilər ki, diqqətli olaq - hər yerdə minalar var:*

”İşğalçı ermənilər hər yerə minalar yerləşdiriblər. Bir neçə dəfə biz də bu tərz hadisələrlə qarşı-qarşıya qalmışdıq. Bu çox ağır xəbər oldu. Bizə dəstək olan, hər dəfə bizə kömək edən iki əməkdaşımızı itirdiyimiz üçün çox pis olmuşam. Onlar vəzifə xidmətlərini yerinə yetirən zaman şəhid oldular. Başımız sağ olsun”.

# Ərzaq məhsulları sürətlə bahalaşır

Ölkəmizdə ərzaq məhsullarının qiymətində ciddi artım baş verib. Bahalaşma demək olar ki, bütün məhsullarda müşahidə olunur. Yağ, qənd, şokolad, meyvə-tərəvəz və digər ərzaqlar əvvəlki qiymətindən xeyri dərəcədə fərqlənir.



*“Ölkəmizdə bəzi yerli istehsalçılar var ki, bazarın böyük hissəsinə nəzarət edirlər”*

Zaman-zaman süni qiymət artımına rast gəlsək də, bütün növ məhsulların bahalaşması mövcud durumun ciddiliyindən xəbər verir. Bəs, bahalaşmanın qarşısını almaq üçün nə kimi tədbirlər görülə bilər?

**İqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə bildirib ki, ölkəmizdə qiymət artımının müxtəlif səbəbləri var:** ”Obyektiv səbəb odur ki, dünyada da ərzaq indeksində kifayət qədər ciddi qiymət artımı müşahidə olunur. Son 1 il ərzində dünyada ərzaq məhsulları təqribən 10 faiz bahalaşıb. Bunun da bütün ölkələrə, o cümlədən Azərbaycana təsiri var.

Subyektiv, həm də daxildən qaynaqlanan səbəblər daha çoxdur. Son günlər ölkəmizdə qiymətlərin yüksəlməsinə süni artım deməzdim.

Çünki kənd təsərrüfatı və aqrar sektorda olan məhsulların qiymətinin artacağına dair yanvar-fevral aylarında xəbərdarlıq edirdik. Çünki dizel yanacağının qiymətinin bahalaşması artıq yeni məhsulların bazara çıxarılmasına öz təsirini göstərəcəkdi. Aqrar sahədə məhsulların əkini, biçini, toplanıb bazara çıxarılmasında ciddi bahalaşma müşahidə olunur. Bütün bunlar ərzaq məhsullarının qiymət artımına təkan verən amillərdir. Ona görə son zamanlar bahalaşma daha da sürətlənib. Bu həm dizel yanacağı ilə əlaqədardır”.

**İqtisadçı qeyd edib ki, dünyada gedən proseslər Azərbaycana gətirilən məhsulların qiymətində yüksəlməyə səbəb olur:** ”Süni səbəblər sırasına daxil edəcəyimiz faktlar bundan ibarətdir: Ölkəmizdə bəzi yerli istehsalçılar var ki, bazarın böyük hissəsinə nəzarət edirlər. Məsələn, bazarın 30 faizdən yuxarısına nəzarət edən şirkətlər mövcuddur. Onların bu inhisarçı mövqeyi bazarda qiymətlərin diktə olunmasında əsas rol oynayan amillərdən birinə çevrilir. Burada daha çox istehsalçının bazara çıxmasına şərait yaratmağa, gömrük rüsumları ilə bağlı yeni qərarların verilməsinə ehtiyac var. Hökumət tərəfindən bu tipli addımlar atılsa, qiymət artımını azaltmaq mümkün olar”.

**Yeganə Bayramova**

# “Bölgə mediasının inkişafı prioritet məsələdir”

## *Ələddin Qarayev: “Maddi-texniki baza güclənməlidir, yenilənməlidir”*



Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi vaxtilə deyirdi ki, hər bir vilayətin qəzeti həmin vilayətin aynasıdır. Bu gün region mətbuatı, onun problemləri haqqında müxtəlif səviyyələrdə ara-sıra danışılır. Rayonlarda yaşayanlar çox zaman lazım olan informasiyanı onlayn mediadan, paytaxtdan göndərilən 10-15 qəzetdən, müxtəlif saytlardan deyil, məhz yerli mətbuatdan almağa üstünlük verirlər.

*”Şərq” olaraq ”Mediaxeberleri.az” informasiya portalının baş redaktoru Ələddin Qarayevlə əlaqə saxlayıb, region mətbuatının bugünkü durumu barədə söhbət apardıq.*

**- Hazırda region mətbuatında vəziyyət necədir?**

- Bölgələrdə mətbuatın vəziyyəti ağırdır, regionda çalışmaq, oxucuları informasiya ilə daim təmin etmək çox çətindir. Buna baxmayaraq 7 ilə yaxındır ki, ”Mediaxeberleri.az”ın əməkdaşları bu işin öhdəsindən gəlməyə çalışır. İnformasiya almaq, informasiyanı dəqiqləşdirməklə bağlı bir sıra problemlər yaranır. Bəzilərini çıxmaq şərti ilə dövlət idarələrinin saytları daim yenilənmir ki, məlumatları oradan əldə edəsən. Medianın əsas gəlir yeri reklam bazarıdır. Reklamlarla bağlı problemlərimiz var. Rayonlarda biznes rəqabəti demək olar ki, yoxdur. Ona görə də reklam verənlərin sayı az olur. Vətəndaşlar şikayətlərini dilə gətirməkdən ehtiyat edir, çəkinirlər. Qohumbazlıq və qorxu xəbər istehsal etməyə çətinlik yaradır. KİVDF region mətbuatına bircə dəfə də olsun nə layihələrdə iştirak etməyə imkan verib, nə də ki, ona vəsait ayırıb. Bax, biz belə çətin vəziyyətdə xəbər istehsal etməyə məhkumuq.

**- Regionda olan problemləri işıqlandıra bilirsizmi?**

- Xeyr, regionlarda yeganə ümid araşdırma yazılarına qalır ki, onlar da vaxt, pul və peşəkarlıq tələb edir. Bunların da üçünü bir yerdə tapmaq çox çətindir. Region mətbuatındakı problemlərin əsas səbəblərindən biri də odur ki, kiməsə tərif yazanda o məqaləni oxunmur, tənqid yazdıqda isə müxtəlif təzyiqlərlə üzləşirsən. Bu gün region mətbuatında yalnız yaşlılar fəaliyyət göstərirlər. Cavanlar isə ya paytaxta, ya da televiziyalara işləməyə gedirlər. Yəni hazırda yüksək məvacib də təklif olunsa, bölgə mətbuatında çalışmaq üçün jurnalist tapa bilməzsiniz. Region mətbuatının bizim istədiyimiz, arzu etdiyimiz şəkildə inkişafı üçün ilk növbədə yeni düşüncə tərzi gəlməlidir. Maddi-texniki baza güclənməlidir, yenilənməlidir.

**- İşçiləriniz neçə nəfərdir?**

- ”Mediaxeberleri.az” informasiya portalı 2014-cü ildən fəaliyyət göstərir. Bu illər ərzində portalımızda 15 nəfərdən çox insan çalışıb, hazırda mənimlə bərabər iki nəfər çalışır.

"Dünyanın bir çox ölkəsində yerli qəzetlər ciddi informasiya mənbəyi kimi qəbul olunurlar"

**- Ofisiniz var?**

- Xeyr. İcarəyə otaq götürmüşük. Maliyyə problemimiz var, bayaq dediyim kimi rayonlarda biznes rəqabəti demək olar ki, yoxdur. Ona görə də reklam verənlərin sayı da az olur. Bu da bizim əsas gəlir yerimizdir.

**- Hansısa mövzu ilə bağlı oxucuların müraciəti olur?**

- Son zamanlar koronavirus və müharibə ilə bağlı suallar çox olur. Azərbaycan cəmiyyətini maraqlandıran mövzulardan biri də, toylara nə vaxt icazə veriləsi ilə bağlıdır. Ümumiyyətlə, yazıçının, şairin, jurnalistin - bir sözlə, yaradıcı adamın həmişə axtarışında olduğu mövzu... Ancaq bu axtarışın nəticələri həmişə uğurlu olmur desək, səhv etmərik. Yəni hər şey yaradıcı adamın əldə etdiyi mövzudan, onu necə təqdim etməkdən, ona yanaşmadan və s. asılıdır. Şəxsən mövzu məni ciddi narahat etməyə başlayanda yazıram.

**- Saytınıza dövlət dəstəyi göstərilirmi?**

- Mediaxeberleri.Az informasiya portalı istifadəçilərdən heç bir maddi və mənəvi ödəniş gözləmədən xidmətini 2014-cü ildən bu yana axsatmadan davam etdirib. Bundan sonra da məqsədimiz eyni istiqamətdə xidmətimizə maddi və mənəvi heç bir mənfəət məqsədi güdmədən davam etməkdir. Bu günlərdə Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva ”AzTV”-nin ”Teleşəhər” proqramında çap və onlayn mediaya dəstək layihələrdən danışdı. İnanıram ki, çap və onlayn mediaya dəstək olunacaq.

**- Gələcək zamanlarda qəzet çap etməyi düşünürsüz?**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirir ki, jurnalistlər mənim köməkçilərimdir. Bu, kifayət qədər ciddi mesajdır. Yəni bu, o deməkdir ki, dövlət öz işini həm də mediadan aldığı siqnallara əsasən qurur. Azərbaycan mediası bütün çətinliklərinə baxmayaraq, inkişafdadır. Yeniliyə can atmaq onun təbiətindən irəli gələn mahiyyətdir. Bunun üçün şərait də önəmli faktordur. Bölgə mediasının inkişafı prioritet məsələdir. Dünyanın bir çox ölkəsində yerli qəzetlər ciddi informasiya mənbəyi kimi qəbul olunurlar.

**- Region mətbuatının nələrə ehtiyacı var?**

- Pula.... (Gülür) Azərbaycan mətbuatı öyündüyümüz, fəxr etdiyimiz, qürur duyduğumuz dəyərlərdən biridir. Cənab İlham Əliyevin 2010-cu il 10 iyun tarixli sərəncamı Azərbaycan mətbuatının keçdiyi yolu həm xronoloji, həm də məzmun baxımından dövriləşdirməyə imkan verir. Həmin sərəncamda mətbuatın keçdiyi, oynadığı rola qısa da olsa, nəzər salınır, qiymət verilir, eyni zamanda, qarşıda dayanan vəzifələr göstərilir. Bu vəzifələr çox əhəmiyyətlidir. Çünki istənilən xalqın və millətin özünün dövlətini, ən yüksək səviyyədə insan haqlarını təmin edəcək cəmiyyətini formalaşdırmasında mətbuat çox əhəmiyyətli rol oynayır. Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsas istiqamətlərindən biri də məhz mətbuata qayğıdır, onun öz missiyasını, vəzifələrini yerinə yetirməsinə yaradılan şəraitdir. Buna görə də region mətbuatının inkişafı üçün, maddi-texniki baza güclənməlidir.

**Söhbətləşdi:**

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Fransanın səyləri nəticəsiz qalacaq

## *Minsk qrupunun fəaliyyətinin bərpası indiki şəraitdə real görünmür*




Fransa və Ermənistan rəhbərlərinin timsalında növbəti dəfə siyasi məzhəkənin şahidi olduq. İstər Fransa Prezidenti Emmanuel Makronun, istərsə də Ermənistanın Baş nazir əvəzi Nikol Paşinyanın səsləndirdiyi fikirlər tamamilə absurd idi. Paşinyanın fürsət düşən kimi Qərbin dəstəyini arzulaması və eyni zamanda Fransa parlamentindən hazırda mövcud olmayan "dqr"in müstəqilliyini tanımasını xahiş etməsi bu adamın xəyalpərəst və avantüristin biri olduğunu təsdiqləyir.

Realist və adekvat siyasi lider ölkəsinin hazırkı bərbad durumunda bu cür sərsəm istəkləri dilə gətirməz. Çünki hazırda Qərbin Ermənistana hər hansı formada ”ildırım sürətli” yardım göstərməsi, Fransa parlamentinin qondarma ”Artsax”ın müstəqilliyini tanıması mümkün deyil. Əslində Paşinyan bu istək və tələblərini ortaya qoymaqla sadəcə həm özünü ifşa etdi, həm də davamlı sülh istəmədiyini dolayısı yolla etiraf etmiş oldu. 10 noyabr və 11 yanvar razılaşmalarının altında imzası olan Paşinyan Makronla görüşündə üçtərəfli razılaşmaların ruhuna zidd açıqlamalar verməməliydi. Onun bu cür açıqlamaları regionda qalıcı sülhün bərqərar olmasına deyil, gərginliyin daha da artırılmasına xidmət edir. Bu isə öz növbəsində Azərbaycanın istər sərhədlərin demarkasiyası məsələsində daha sərt mövqe tutmasına, istərsə də Dağlıq Qarabağda antiterror əməliyyatı keçirməsinə əlverişli zəmin yaradır. Həmsədr Fransanın əsas vəzifəsi isə tərəflər arasında qızışdırıcı rolunda çıxış etmək yox, neytral və qərəzsiz mövqe nümayiş etdirməkdir. Hiss olunur ki, Makronun həmsədrlik anlayışı yarımçıq və qərəzlidir. Fransa prezidenti çirkin geosiyasi oyunlar oynamağa can atır. Amma onun bu oyunları ilk növbədə Fransanın öz imicinə ağır zərbə vurur. Makronun Ermənistan kimi autsayder bir ölkəni dəstəkləməsi Fransanın və fransız xalqının maraqlarına ziddir. Makron ”Azərbaycan qoşunu Ermənistan ərazisindən çıxmalıdır” kimi gülünc bəyanat səsləndirib. Heç kimə sirr deyil ki, 1991-ci ildən sonra Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyi üçün iki dövlət arasında sərhədlərin müəyyənləşməsində də problem yaranıb. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiya və delimitasiyası üzrə danışıqlar gedir, müzakirələr aparılır. Bu halda Makron ”Ermənistan ərazisi” dedikdə nəyi nəzərdə tutur?! Halbuki, rəsmi Bakı Azərbaycan hərbçilərinin başqa bir dövlətin, o cümlədən Ermənistan ərazisində olmadığını bildirib. İki ölkə arasında sərhədlərin müəyyənləşməsi də keçmiş SSRİnin xəritəsi üzrə aparılır. Görünür, ermənilər kimi Fransa prezidenti də Ermənistanın işğal altında 30 il saxladığı Azərbaycan torpaqlarına iddia edir. Ermənilərin işğal edilmiş Azərbaycan torpaqlarına yerləşdirilməsinə rəsmi Paris 30 il göz yumub. Onlara maddi-mənəvi dəstək verib. Hətta Ermənistanın işğal altında saxladığı qonşu dövlətin ərazisində hərbi mühəndis qurğularının tikilməsində, ərazilərin minalanmasında Fransanın ”əməyi”nin olduğu məlumdur. Fransa rəhbərliyi indiyədək Ermənistana minalanmış ərazilərin xəritələrinin verilməsi və Birinci Qarabağ müharibəsində əsir götürülən azərbaycanlıların qaytarılması barədə heç bir açıqlama verməyib. İndi sərhəddən danışan Emmanuel Makron və onun kimi düşünənlər bilməlidir ki, işğaldan sonra tərəflər arasında sərhədlər yenidən bölünmür. Sadəcə, 1920-ci ildən sonra mövcud olmuş ərazilərdə Azərbaycanın suveren hüquqları bərpa olunur. Ermənistanda sərhəd məsələsi ilə bağlı gərginliyin yaranmasında xarici

## Azərbaycan Qarabağ məsələsində bütün siyasətini Türkiyə ilə uzlaşdırmalıdır

qüvvələrin rolunun olması üzə çıxmaqdadır. Noyabrın 10-dan sonra rəsmi İrəvan mübahisəli məsələlərin həllinə indikindən daha məsuliyyətlə yanaşırdı. Son aylar Ermənistanın mövqeyində dəyişiklik yaranıb. Makronun və fransalı başqa siyasətçilərin çıxışlarından belə çıxır ki, rəsmi İrəvanı Fransa yönləndirir.

**Məlsən, Fransa parlamentinin Aşağı palatasının sədri Rişar Ferran Nikol Paşinyanla görüşündə Cənubi Qafqazdakı vəziyyətdən danışıb, Ermənistana sevgisini gizlətməyib:** ”Erməni xalqına çatdırın ki, Fransa Ermənistanın tərəfindədir. Siz bizə həmişə güvənmisiniz, indi və gələcəkdə də güvənə bilərsiniz”. O, bununla Azərbaycanla Ermənistan arasında mövcud problemlərin həllində Fransanın ermənilərin müdafiə etdiyini bildirib. Ferran həm də rəsmi Parisin bu kimi məsələlərdə tərəfsiz olmadığını açıqlayıb. Fransa Senatının sədri Jerar Larşe də Paşinyanla görüşdə mövcud olmayan münaqişədən bəhs edib, ”erməni əsirləri”nin azad edilməsindən danışıb. Paris meri Ann İdalqo Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyanla görüşü zamanı ermənilərin tək qoymayacaqlarını bildirib: ”Biz hər zaman Ermənistanla yan-yanayıq və sıx kontaktları dəstəkləməyə davam edəcəyik. Ermənistan üçün bu çətin situasiyada biz qəti mövqe tutmuşduq. Cənab baş nazir, əmin olun ki, biz Ermənistanı və erməni xalqını təkbaşına qoymayacağıq”.

Şübhəsiz, bu cür münasibətdə olan bir dövlətin yenidən vasitəçilik arzusuna düşməsi qəbuledilməzdir. Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, 1997-ci ildən Fransa həmsədr qismində fəaliyyət göstərsə də, rəsmi Paris tərəfindən heç zaman Ermənistan qoşunlarının işğal altında olan Azərbaycan torpaqlarından çıxarılmasına çağırış edilməyib. XİN vurğulayıb ki, bölgədə atəşkəs təmin edilir və bunun əsasında Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il tarixində imzaladığı birgə bəyanat dayanır: ”Bu məsələdə Fransanın hər hansı rolunu görmürük: ”Azərbaycan tərəfi hər zaman bütün hərbi əsirlərin ”hamının hamıya” prinsipi əsasında dəyişdirilməsi mövqeyindən çıxış edib. Dəfələrlə bəyan etdiyimiz kimi, Azərbaycanda erməni əsilli hərbi əsir yoxdur. Fransa prezidentinin çıxışında istinad etdiyi ”Dağlıq Qarabağ” adı ilə bağlı vurğulamaq istərdik ki, belə bir inzibati ərazi vahidi mövcud deyil. Çıxışda istinad edilən birbaşa dialoq məsələsinə gəldikdə, bu artıq baş verir. 11 yanvar 2021-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı bəyanata istinadən baş nazirlərin müavinləri səviyyəsində görüşlər keçirilir və dialoq mövcuddur. Lakin Fransanın bu prosesdə hər hansı rolu yoxdur. Delimitasiya və demarkasiya prosesinə gəldikdə, bəyan etdiyimiz kimi, Azərbaycan delimitasiya prosesinə başlamağı dəstəkləyir və bu proses danışıqlar yolu ilə öz həllini tapmalıdır. Fransanın qəti şəkildə regiona qayıtması barədə açıqlama isə anlaşılan deyil. Sirr deyil ki, Fransanın Ermənistana xüsusi rəğbəti var, amma Minsk qrupunun həmsədri kimi bu ölkə rəsmi neytrallığını saxlamalıdır”.

**Rusiyanın ATƏT yanında daimi nümayəndəsi Aleksandr Lukaşeviç bildirib ki, Minsk qrupunun üzvləri ilə məsləhətləşmələr aparılır.** Onun sözlərinə görə, yanvarın 11-dəki bəyanat bölgədə iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasına təkan verdi və bu iş arası kəsilməyən qarşıdurma şərtlərində gərgin səylər tələb edir: ”Hər şey qəlizdir və həmsədrlər qoyulmuş məsələlərin məcrasında necə hərəkət edəcəklərinə dair resept verməkdə çətinlik çəkirlər. ATƏT tərəflərlə dil tapmağa çalışır və bu strukturun konkret rolunu təyin etmək hələ ki çətindir. Həmsədrlərdən yeni reallıqların və üç tərəfin birgə bəyanatlarının paradiqmalarına necə uyğunlaşacaqları barədə spesifik reseptlər gözləyirlər. Təəssüf ki, səylər istənilən nəticəni vermədi. Əlbəttə, əvvəllər tətbiq olunan müşahidə funksiyaları indi, çətin ki, reallaşdırılsın, çünki artıq yeni mexanizmlər, yeni reallıqlar işə düşüb. Yeni məsələlər toplusunu öyrənmək lazımdır, çünki keçmişin düşüncəsi kömək etməyəcək. Aydındır ki, hazırda bölgədə baş verən proseslərə Minsk qrupu strukturunun uyğunlaşdırılması üçün yeni reseptlər lazımdır”.

**Millət vəkili Nəsib Məhəməliyev vurğulayıb ki, Makronun Ermənistanı strateji tərəfdaş adlandırmasının səbəbini daha çox Rusiya-Fransa, Fransa-Türkiyə münasibətlərində axtarmaq lazımdır. Deputatın sözlərinə görə, ermənilərdən sadəcə oyuncaq kimi istifadə olunur:** ”Qardaş Türkiyə ilə Fransanın münasibətləri aydındır. Ancaq Rusiya ilə də Fransanın qlobal geosiyasi məsələlərdə ciddi fikir ayrılıqları, hətta dünyanın bir çox nöqtələrində qarşıdurma halları mövcuddur. Hesab edirəm ki, Rusiya Fransanın və yaxud hansısa üçüncü dövlətin Ermənistanda olmasını qəbul etməyəcək. Rusiya seçkidə müxalifətə dəstək verir. Paşinyan bunu bildiyinə görə sərhəddə təxribatlar törədildi və üçtərəfli komissiyanın fəaliyyəti donduruldu. Paşinyan Rusiyadan narazıdır. Düşünürəm ki, iyunun 20-dən sonra bir çox məsələlərə aydınlıq gətiriləcək. Bugünkü reallıq ondan ibarətdir ki, Ermənistan ancaq tapşırıqları icra edir. Minsk qrupunun fəaliyyətini bərpa etmək mümkündür. Burada Fransadan başqa ABŞ və Rusiyanın da mövqeləri üst-üstə düşür. Ancaq məhsuldar əməkdaşlığın olması şübhəlidir. Minsk qrupu 30 il ərzində mənasız danışıqlardan başqa heç nəyə nail olmadı. Yenə də boş, mənasız danışıqlar davam edə bilər. Azərbaycan Minsk qrupu ilə münasibətdə qəti mövqe nümayiş etdirməlidir. Fransa ilə məsələ tam dəqiqləşdirilməli, ikitərəfli əməkdaşlıq münasibətləri beynəlxalq hüququn norma və prinsiplərinə uyğun sənədləşdirilməlidir. Neytrallığı qorunmadıqda, o ölkə həmsədr kimi qalmamalıdır. Makron artıq dünyada ciddi lider kimi qəbul olunmur. Bu yaxınlarda Afrika səfərində ona layiq olduğu yeri göstərdilər. Hesab edirəm ki, Qarabağ məsələsində siyasətimizi Türkiyə ilə uzlaşdırmağımız doğru olardı”.

**Siyasi analitik Turab Rzayev də Minsk qrupunun həmsədrlərinin fəallaşmasını dəyərləndirib:** ”Ermənistan ABŞ və Fransaya çağırış edərək sərhədlərin müəyyənləşməsində ”oyunçu” olmasını istəyir. Ermənistanda Baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın məqsədi özünə beynəlxalq dəstək qazanmaq və Rusiyanın təzyiqlərinə qarşı ”hava yastığı” yaratmaqdır. Əslində ABŞ və Fransa da bunda maraqlıdırlar. Çünki Rusiyanın proseslərdə təkbaşına iştirak etməsini istəmirlər. Rusiya Qarabağdakı sülhməramlı qüvvələri ilə orada həlledici qüvvə olduğunu göstərməyə çalışır. Moskva Vaşinqton və Parisi incik salmağı, qınaq obyektinə çevrilməyi arzulamır. Əslində onların fəallaşması şimal qonşumuzun ürəyincə deyil. Moskva ancaq özü proseslərə nəzarət etmək niyyətindədir. Odur ki, belə demək mümkünsə, Kreml Minsk qrupunun sadəcə adının qayıtmasını istəyir”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Ekoloji fəsadlara şərait yaranır

*95 markalı benzinin bahalaşması vətəndaşlara və sahibkarlığa mənfi təsir göstərəcək*

Azərbaycanda Aİ-95 markalı benzinin qiyməti qalxaraq 1.40 manat olub. Məlumatlı mənbələrdən bildirilib ki, qiymət dəyişikliyinə səbəb beynəlxalq birjalarda neftin qiymətinin artmasıdır. Aİ-95 markalı benzin Azərbaycanda istehsal olunmadığı, xaricdən idxal edildiyi üçün qiymət artımı labüd olub.

Qeyd edək ki, buna qədər sözügedən marka benzinin qiyməti 1.25 manat idi.

Adətən ölkədə qiymət artımı müxtəlif sahələrə təsir göstərir. Bəs, Aİ 95 markalı benzin bahalaşmasının hansı sahələrə təsirləri ola bilər?

**Sualımızı cavablandıran iqtisadçı-alim Nazim Bəydəmirli "Şərq"ə bildirib ki, istənilən qiymət artımı vətəndaşlara və biznesə ziyandır:** "Təəssüf ki, Azərbaycanda yanacağın bahalaşmasını neftin dünya bazarındakı qiymətinə uyğunlaşdırmağa çalışırlar. Aİ 95 və Aİ 98 markalı benzin ölkəmizdə istehsal edilmir. Bu da Azərbaycan hökumətinin, xüsusilə SOCAR idarəetməsinin nəticəsidir. SOCAR illər boyu neftayırma zavodunu rekonstuksiya etməyib və bu məhsulları xaricdən almağa məhkumuq. Dünya bazarında xam neftin qiyməti artdığı üçün ölkəmizə idxal olunan məhsullar da bahalaşır. Bu məhsulları bir neçə şirkət, həmçinin SOCAR və "Azpetrol" idxal edir. Lakin daxildə qiymət artımı baş verdikdə xaricdən idxal olunan məhsullardakı bahalaşma daxili monopoliyanı qorumaq məqsədi daşıyır. Yəni qiymət artımı təbii inhisarçılar olaraq iri vergi ödəyicilərinin apardığı taarif siyasəti ilə bağlıdır.




**"İnsanlar avtomatik olaraq daha aşağı oktanlı benzindən istifadə etməyə məcbur olacaqlar"**

Normal idarəçilik olmadığı üçün SOCAR bütün dünyada törəmə şirkətlər, istehsal sahələri açır, Türkiyədə neft-kimya sahəsinə 10 milyard dollarla vəsait yatırır. Ancaq Azərbaycanda 10 illərdir ki, bu işləri görməyib. Son illər Bakıda mövcud olan köhnə neft emalı zavodları var. Onlardan birinin rekonstruksiya edilməsi barədə qərar qəbul edilib".

**İqtisadçı təəssüflə vurğulayıb ki, neft ölkəsi olsaq da, bizdə yanacaq bahadır:** "Ümumiyyətlə, Azərbaycanda qiymət artımı əsasən iki faktordan asılıdır: Birincisi, hökumətin apardığı fiskal siyasət, yəni Gömrük Komitəsi olaraq bəyannamə qiymətini şişirdilməsi və süni qiymət artımı. İkincisi, təbii inhisarçı olaraq ölkə daxilində olan taariflərin artması.

Məlumdur ki, ilin əvvəlində dizel yanacağı və Aİ 92 markalı benzinin qiyməti bahalaşmışdı. Bu da ölkədə zəncirvari qiymət artımına gətirib çıxardı. Ai 95 və ya Aİ98 markalı benzinin bahalaşması da vətəndaşlara və biznes sahibkarlığına mənfi təsir göstərəcək. İnsanlar avtomatik olaraq daha aşağı oktanlı benzindən istifadə etməyə məcbur olacaqlar. Bu da ekoloji fəsadlara şərait yaradır. Çıxış yolu üçün iqtisadi mühit sabitləşməli, rəqabət mühiti olmalı, SOKAR və digər vergi ödəyicilərinin üzərində yaradılmış müşahidə şuraları şəffaf işləməlidir. Media və QHT sektoru da bu müşahidələrdə azad iştirak etməlidir. Hökumətin trolluğunu yox, cəmiyyətin inkişafını düşünən təkliflər səsləndirəcəklər".

**Yeganə Bayramova**



# Elektromobillərə keçid qaçılmaz prosesdir

*"Biz bu keçidi nə qədər mümkündürsə, bir o qədər tez reallaşdırmalıyıq"*

"Gələn ildən Azərbaycanda Aİ-95 markalı benzinin istehsalına başlanacaq ki, bununla da qiymət artımından sığortalanacağıq". Bu barədə millət vəkili Sahib Alıyev deyib. Deputat bildirib ki, Aİ-95 və Aİ-98 oktanlı benzinləri özümüz istehsal etmirik, xaricdən satın alırıq.

Dünya bazarında hər iki markadan olan benzinin qiyməti qalxdığından bizdə də qalxır: "Ölkəmizdə yüksək oktanlı benzinə tələbat cəmi 5 faiz olduğundan, həmin növ yanacaq bahalı maşınlar üçün nəzərdə tutulduğundan qiymət artımını əhalinin əksər hissəsi öz üzərində hiss etməyəcək. Amma məncə, biz artıq yüksəkoktanlı benzinin istehsalından daha çox, Azərbaycanda elektrik enerjisi generasiyasının artmasına, infrastrukturunun təkmilləşdirilməsinə diqqət etməliyik. Ölkədə elektrik doldurma stansiyalarının sayı artırılmalı və coğrafiyası genişləndirilməlidir. Düzdür, buna hələ böyük ehtiyac duyulmur. Çünki Azərbaycanda elektriklə işləyən avtomobillər həddən artıq azdır və tezliklə artma meyli hiss edilmir. Avropa Avtomobil İstehsalçıları Assosiasiyası (ACEA)nın araşdırmasına görə, satılan avtomobillərin 14,7 faizi elektriklə işləyən, yaxud hibrid mühərriklidirlər. Bu növdən olan avtomobillərin satışında nə az, nə çox, düz 97,1 faiz artım var. Azərbaycana gəldikdə isə cari ilin ilk dörd ayında ölkəyə 23 min 854 avtomobil gətirilib ki, o da ötən ilin eyni dövrüylə müqayisədə 38,7 faiz çoxdur. Amma gətirilən avtomobillərin cəmisi 24-ü elektriklə işləyir, 2 min 805-i isə hibrid mühərriklidir".

**Parlament üzvü vurğulayıb ki, aparıcı ölkələrdə elektriklə işləyən avtomobillərə böyük üstünlük verildiyi halda bizdə yanaşma fərqlidir:** "Bilirsiniz, Norveçdə hazırda elektriklə işləyən avtomolilərin sayı nə qədərdir? Onlar artıq ölkənin avtomobil parkının hardasa 40 faizini təşkil edirlər və cəmi dörd ildən sonra orada bu göstərici 100 faizə çatacaq. Norveç elə də böyük ölkə deyil. Lakin dünyada satılan avtomobillərin az qala üçdən biri Çinin payına düşür ki, orada da 2025-ci ildə elektriklə işləyənlər bazarın 25 faizni təşkil edəcək. Bir sözlə, elektromobillərə keçid qaçılmaz prosesdir və biz bu keçidi nə qədər mümkündürsə, bir o qədər tez reallaşdırmalıyıq. Onun üçün də elektromobillər alınarkən Norveçdəki kimi verginin hər iki növündən azad edilməli, pulsuz dayanacaqlar və s. güzəştlər nəzərdə tutulmalıdır. Eyni zamanda ona da hazır olmalıyıq ki, bu, dünya bazarında neftə tələbata da təsirsiz ötüşməyəcək. Son illərədək istehsal olunan neftin 44 faizini benzin və dizellə işləyən avtomobillər sərf edirdilər. Ancaq bu rəqəm durmadan azalmaqdadır".

**İsmayıl Qocayev**

# Günəş enerjisi çox ucuz başa gəlir

*"İşğaldan azad olunmuş regionlarda böyük potensial var, əsasən də Araz boyu rayonlarda"*



Azərbaycan Respublikasının Energetika Nazirliyi və bp Zəngilan/Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalayıblar.

Bu sənəd işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, Azərbaycanın bərpa olunan enerji sektorunun inkişafı ilə bağlı strateji qərarı və 2030-cu ilədək karbon qazı emissiyalarını 35 faizədək azaltmaq öhdəliyinin, bp-nin isə 2050-ci ilədək "xalis sıfır emissiya"lı şirkətə çevrilmək strategiyasının icrası çərçivəsində imzalanıb. Nazir bildirib ki, qoyuluş gücü 240 MVt olan günəş enerjisi layihəsi üzrə bp ilə fəal işbirliyimiz Qarabağa xarici sərmayənin gətirilməsini təmin edəcək".

**"Gələcəkdə əhalinin elektrik enerjisindən pulsuz istifadə etmək şansı yaranacaq"**

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında alternativ və bərpa olunan enerjidən istifadə edilməsi bir prioritet kimi elan edilib.** O qeyd edib ki, artıq bir çox layihələrdə bərpa olunan elektrik enerjisindən yəni ekoloji təmiz, yaşıl enerjidən istifadə nəzərdə tutulub: "Bu layihələrdən biri də günəş elektrik stansiyalarının işğaldan azad olunmuş torpaqlarda tikilməsi ilə əlaqədardır. Dünyada günəş enerjisi ən effektiv, alternativ enerji sayılır. Son illər yeni texnologiyaların tətbiqi, yeni günəş panellərinin kəşf edilməsi və istehsala başlaması günəş enerjisinin maye dəyərini xeyli ucuzlaşdırıb. Təqribən 15 il bundan qabaq günəş enerjisinin bir kilovatı 28-30 sentə başa gəlirdisə, indi 1,5-2 sentə başa gəlir. Yəni bu, ən ucuz elektrik enerjisi sahələrindən biridir. Bu anlamda Azərbaycanın da böyük potensialı var. Xüsusən, işğaldan azad olunmuş regionlarda böyük potensial var, əsasən də Araz boyu rayonlarda".

*N.Cəfərli əlavə edib ki, Azərbaycanın bir çox ölkələrlə və şirkətlərlə günəş elektrik stansiyalarının tikilməsi ilə bağlı danışıqlar aparıldığı da bilinir:* "Artıq bir neçə belə memorandum da imzalanıb. Bunlardan biri də "British Petrol" şirkətidir ki, onunla ilkin danışıqlar aparılır. bp şirkəti Azərbaycanın işğaldan azad olunmuş rayonlarında günəş elektrik stansiyaların tikilməsi ilə bağlı artıq məramını bəyan edib. Günəş elektrik stansiyalarının tikilməsinin üstünlüyü ondan ibarətdir ki, birincisi, ekoloji cəhətdən ən təmiz elektrik enerjisi sayılır. İkincisi, işğaldan azad olunmuş ərazilərə başqa yerlərdən uzun xətlərlə elektrik enerjisinin gətirilməsinə ehtiyac qalmayacaq və bununla da əlavə xərclərə ehtiyac qalmır. Yəni istehsal yerli və lokal xarakter daşıyır. Üçüncüsü, gələcəkdə əhalinin bu prosesə qoşulacağı gözlənilir. Əhali üçün inşa edilən evlərin dam örtükləri günəş panelləri ilə örtüləcək ki, bu da onların elektrik enerjisinə ehtiyacını tam ödəyəcək və pulsuz olaraq elektrik enerjisindən istifadə etmək şansı yaradacaq".

**Aynurə Pənahqızı**

# Köhnə dərd hələ bitməyib

## *Keçmiş tarixlə diplom alanların diplomları tanınmayacaq*

Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən may ayı üçün diplomların tanınması üzrə edilən müraciətlərin statistikası açıqlanıb. Təhsil Nazirliyinin məlumatına görə, may ayında icrası 21 gün ərzində tamamlanan 258 müraciətçinin 193-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 65 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.



"Xarici ölkə təhsilini seçərkən Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun davranılmalıdır"

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 40, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 16, qeyri-ənənəvi təhsil formasında təhsil alması səbəbi ilə 6, digər səbəblər üzrə 3 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiyadan 70, Türkiyədən 66, Ukraynadan 66, Gürcüstandan 21, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 14, digər ölkələrdən isə 21 müraciətin olduğu müşahidə olunub.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 33, iqtisadiyyat üzrə 20, menecment üzrə 16, biznesin idarə edilməsi üzrə 11, stomatologiya üzrə 10 nəfər müraciətçi qeydə alınıb.

Bundan əvvəl də agentlik diplomları tanınmayan ali təhsil müəssisələrinin siyahısını təqdim etmişdi. Və bildirmişdi ki, agentliyə müraciət edən vətəndaşlar arasında xarici ali təhsil müəssisələrinin lisenziyasız fəaliyyət göstərən Bakı filiallarında təhsil alan 385 müraciətçinin diplomları üzrə əldə olunan ixtisasları ölkə ərazisində tanınmayıb. Bunlar, Dağıstan Dövlət Universiteti, Cənubi Rusiya Humanitar İnstitutu, Sankt-Peterburq Xarici İqtisadi Əlaqələr və Hüquq İnstitutu, Rusiya Dövlət Sosial Universiteti idi. Agentlik diplomları tanınan ali təhsil müəssisələrinin də adlarını açıqlamışdı.

Xaricdə təhsil, tanınmayan diplomlar, havaya sovrulan pullar, suya düşən xəyallar... Bunun bir sonu olacaqmı?

**Mövcud durumu "Şərq"ə şərh edən təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, bir neçə il öncəyə qədər diplomların tanınması məsələsində qeyri-şəffaflıq vardı və bir sıra ali məktəblər də vəziyyətdən sui-istifadə edərək qeyri-qanunu tələbə qəbulu həyata keçirirdi:**

- 2013-cü ilədək bu vəziyyətə göz yumulub. Universitetlər və ya filialların hərəsi bir bina tutmuşdu, imtahandan kənar qəbul həyata keçiriblər. Ona görə də Azərbaycan ali məktəblərinə daxil ola bilməyənlər, üz tuturdu xarici ölkələrin burdakı filiallarına. Əlbəttə, burada əhalinin "diplom sevgisi" də böyük rol oynayırdı. "Təki övladımın diplomu olsun", düşüncəsi ilə hərəkət edən valideynlər tələb olunan ödənişi edir və övladının ali məktəb tələbəsi olmağıyla qürurlanırdı. Təbii ki, məsuliyyət qanunsuz tələbə qəbuluna göz yumanlardadır. Sonradan diplomları tanınmayan universitetlərin tələbə qəbulu üçün lisenziyası olmayıb. Onların fəaliyyət istiqaməti elmi-tədqiqat, elmi təcrübələr və sair, tələbə qəbulundan kənar istiqamətdə təsdiqlənmişdi. Lakin onlar qanunsuz tələbə qəbulu həyata keçirirdilər. Tələbə qəbulu üçün lisenziyası olanlarsa plandan artıq tələbə qəbulu həyata keçirirdi. Çünki tələbə qəbulu üçün lisenziyadan əlavə həm də plan yerləri tələb olunur. Ancaq onların belə bir icazəsi yox idi. Köhnə tarixlə diplom alanlar bilməlidir ki, diplomları tanınmayacaq. Onların fəaliyyəti mövcud Azərbaycan qanunları ilə üst-üstə düşmür.

*K.Əsədov bildirdi ki, 2016-cı ildən etibarən vahid elektron baza yaradılıb. Lisenziya, akkreditasiya ilə bağlı bütün məlumatlar elektron bazada yerləşdirilib:*

- Azərbaycanda lisenziyasız fəaliyyətlə bağlı problem yoxdur artıq. Problem xarici ölkə ali təhsil müəssisələri ilə bağlı ola bilər. Lakin vahid portal mövcuddur. Avropa ali təhsil müəssisələri ilə bağlı da vahid Avropa sistemi var. Bu gün istənilən şəxs vahid sistemə daxil olmaqla, portaldan məlumat əldə edə bilər; bu universitetin fəaliyyətinə icazə varmı, tələbə qəbuluna lisenziyası varmı və diplomları tanınırmı. Valideynlər də diqqətli olmalı və məlumatları əldə etməlidirlər. Eyni zamanda məlumdur ki, Azərbaycanda vahid tələbə-məzun sistemi fəaliyyət göstərir və ondan kənar ölkə daxilində tələbə qəbulu aparıla bilməz.

*K.Əsədov qeyd etdi ki, agentlik diplomların tanınmamasının konkret səbəblərini göstərir:*

- Xarici ölkə ali məktəblərində təhsil alan tələbə 1 semestr ərzində, əyani təhsil alırsa, 90 gün, qiyabi təhsil alırsa, 15 gündən az olmayaraq həmin ölkədə tədris prosesində - dərslərdə şəxsən iştirak etməlidir. Bu, qanunvericiliklə qoyulan tələbdir. Bu şərt pozulduqda diplomlar tanınmır. İkinci məsələ, mövcud qanunvericiliyə görə, distant formada təhsil alanların diplomları tanınmır. Böyük Britaniya, Şimali İrlandiya ali təhsil müəssisələri dünya universitetləri reytinqində ilk 10-luq və ilk 20-də yer alan ali məktəblərdir. Amma nə olsun, Azərbaycandakı mövcud qanunvericilik buna imkan vermir. Odur ki, valideynlər də, abituriyentlər də xarici ölkə təhsilini seçərkən ilk növbədə Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun davranmalıdır. Bəlkə gələcəkdə şərtlər başqa olacaq, qanunvericiliyə dəyişiklik ediləcək, o zaman istədikləri kimi hərəkət edərlər.

**Jalə Bədirova**

# Gələcəyi düşünə-düşünə yaşlaşırlar

"Müasir dövr gənclərinin əziyyət çəkdikləri əsas mövzulardan biri də işsizlikdir" desək, yanılmarıq. Orta, yaxud ali təhsilli gənclərin böyük bir qismi iş tapmaqda çətinlik çəkdiklərini tez-tez dilə gətirirlər.

Öz sahələri üzrə vakansiyalara müraciət etsələr də, müsbət cavab almayanlar, alsalar belə, müsahibə mərhələsini uğurla tamamlaya bilməyənlər kifayət qədərdir. Bunlardan başqa, ixtisasına yiyələndikləri sahələr üzrə iş tapa bilməyən gənc nəslin bir qismi digər sahələr üzrə çalışmağa məcbur qalır. Beləliklə, əmək bazarında qarışıqlıq yaranır.

Bu cür tendensiyaların səbəbləri də müxtəlifdir: iş elanlarına müraciət edən namizədlərin təcrübələrinin olmaması, gənclərin təşəbbüskarlığının yetəri qədər olmaması, peşə seçiminin düzgün şəkildə aparılmaması, müvafiq iş yerlərinin azlığı və s.

Gənclərin məşğulluğunun təmin olunması üçün əmək bazarının tələbləri və mövcud vəziyyəti nəzərə alınmalı məqamlardan ən mühümüdür. Əmək bazarında müasir dönəmdə gənclərdən müxtəlif dil, kompüter, ixtisas bilikləri, o cümlədən komanda işi, liderlik kimi əsas bacarıq və səriştələr tələb olunur. Bu mövzuda öz fikirlərini bölüşən insan resursları mütəxəssisi İlkin Mirzəzadə hazırda təhsil alan gənclərin gələcəkdə işsizlik kimi problemlərdən əziyyət çəkməmələri üçün elə təhsil aldıqları dövrdən gələcəkləri üçün çalışmalı olduqlarını deyir: "Universitet tələbələri məhz təhsil aldıqları dövrdə şəxsi inkişaflarına vaxt ayırmalı, dörd il sadəcə təhsil müəssisələrinə gedib-gəlməklə kifayətlənməməli, artıq təhsillərini bitirib iş həyatına başlayarkən ingilis dilini və ya kompüter bacarıqlarını və s. öyrənməli olduqlarını düşünməməlidirlər. Buna görə də tələbəlik illərindən mütləq təcrübə proqramlarına qoşulmalı, könüllü fəaliyyətlərlə məşğul olmalı, dil və kompüter biliklərini, digər səriştə və bacarıqlarını təkmilləşdirməlidirlər. Artıq distant şəkildə, az ödənişlə fəaliyyət göstərən kurslar var ki, onlardan kifayət qədər faydalanmaq mümkündür. Bütün bunlara başlamaq üçün sadəcə əzm, istək lazımdır. Gənclər nəzərə alsınlar ki, hər il on minlərlə məzun olur. Əgər əmək bazarında 1000 iş yeri varsa, bu, digər 9000 şəxsin həmin iş yerlərindən məhrum olması deməkdir. İşlə təmin olunacaq həmin1000 nəfərdən biri olmaq üçün daim çalışmaq lazımdır".



## *Ətrafımız işsiz, savadlı, bacarıqlı gənclərlə doludur*

Bu da məlumdur ki, pandemiya səbəbilə bütün dünya üzrə əmək bazarı çox mühüm itkilərə məruz qalıb. Bu barədə də öz fikirlərini bölüşən mütəxəssis pandemiya dövründə əmək bazarının vəziyyətində meydana gələn dəyişikliklərin məşğulluq proseslərinə ciddi təsir göstərdiyini deyir: "Pandemiya dövründə əmək bazarında yaxşı kadrlar belə, işini itirmək məcburiyyətində qaldı. Bu səbəbdən digər kadrlara da iş tapmaq çətin oldu. Namizədlərin gözləntiləri də aşağı düşdü - az əməkhaqqı ilə də işə hazırdırlar, təki iş olsun. İşçilər əvvəllər karyera irəliləyişini, bonus almağı gözləyirdilərsə, pandemiya dönəmində isə sadəcə vəzifələrindən kənarlaşdırılmamaq istədilər. Bircə işləri davam etsin, çünki pandemiyada iş tapmaq çətindir".

Mütəxəssis peşə seçimi edərkən nələrə diqqət yetirməyin vacib olduğunu vurğulayır: "Namizəd peşə seçimi edərkən öz bacarığına, biliyinə və istəyinə diqqət etməlidir. Bunları müəyyən etmək üçün internet vasitəsilə həyata keçirilən müxtəlif sorğulardan, testlərdən istifadə etmək olar. Bu cür sorğu və testlər gənclərə hansı sahədə uğurlu ola biləcəklərini müəyyənləşdirmələrində çox yardım edə bilər. Bir daha qeyd edirəm, peşə seçiminin hansı sahə üzrə aparılmasının düzgün olması tamamilə gənclərin öz bilik, bacarıq, dünyagörüşü, həvəs və istəyindən asılıdır. Bu həvəs və istəyi ortalığa çıxarmaq üçün tövsiyə edərdim ki, tələbəlik illərindən hərəkətə keçməyə başlasınlar. Seçdikləri sahəni dəyişmək də yaxşıdır, maliyyə və marketinq sahələri arasında qalıblarsa, hər ikisində özlərini yoxlasınlar, nəhayət, ikisindən biri üzərində fokuslanacaqlar. Mən özüm də belə etmişəm, burada ən əsası bir daha qeyd edim, öz istəkləri, bacarıqları və həvəsləridir".

Gənclərin iş tapma mövzusunun çətinlikləri barədə fikirləri müxtəlifdir. Bu haqda fikirlərini öyrəndiyimiz gənclərdən biri Firəngiz Əliosmanova universiteti yeni bitirdiyi üçün düşüncələrinin bədbin olmadığını deyir: "Hələ də çox çalışıb, fəal olaraq və istədiyin işi seçib məqsədə doğru irəliləyərək qısa bir müddətdə iş tapmağın mümkün olduğuna inanıram. Lakin ətrafımda işsiz, savadlı və bacarıqlı çox gənc görürəm. Belə hallar məni gələcəyim haqda çox düşündürür. Ölkəmizdə daha çox, gənclərimizin bu xüsusiyyətlərinə fikir verilsə, çox sevinərəm".

Digər bir işaxtaran gənc Əsmər Süleymanova isə müəllim peşəsi üzrə imtahan verib bu sahədə irəliləmək üçün əlindən gələni etməyə hazır olduğunu deyir: "Öz vətənimin övladlarına dəyərli biliklər vermək üçün bu ada nail olmağı qarşıma məqsəd qoymuşam. Hazırda dayanmadan, böyük əzmlə çalışıram ki, qarşıma qoyduğum məqsədə çatım və gələcək nəslin güclü inkişafı üçün öz bilik və bacarığımdan düzgün istifadə edim".

Mövzuyla bağlı fikirlərini öyrəndiyimiz digər gənclər isə iş elanlarında bir neçə il təcrübə tələb olunmasının yenicə təhsilini başa vurmuş gənclər üçün sərfəli olmadığından və digər problemlərdən söz açırlar. Həmçinin işsizlik probleminin həlli üçün bütün universitetlərdə mütəmadi karyera sərgilərinin keçirilməsinin, universitet daxilində tələbələrə praktiki bacarıqlarının inkişafı üçün şərait yaradılmasının vacibliyini vurğulayırlar.

Beləliklə, araşdırmamızın sonunda bu nəticəyə gəlirik ki, müasir dövrdə gənclər arasında işsizliyin səbəbləri həm gənclərin özündə, həm də bütün dünyada mövcud olan qlobal vəziyyətlərlə əlaqəlidir. Bu gün gənclərin məşğulluğunun təmin olunması istiqamətində müxtəlif müzakirə və seminarlar təşkil edilir, proqram və layihələr həyata keçirilir. Görülən işlərin əsas məqsədi olan gənclərin inkişafı cəmiyyətin, ölkənin inkişafı baxımından olduqca vacibdir. Bunun üçün gənclər də mütəmadi olaraq öz üzərlərində işləməli, asudə vaxtlarını səmərəli təşkil etməli, daim inkişaf üçün çalışmalıdırlar.

**Ülkər Oruclu**

# “Heç kim mənə satılıq qadın deyə bilməz”



Müğənni Nüşabə Musayeva aparıcı Tarix Əliyevə (Tolik) müsahibəsində şok iddialar irəli sürüb.

*Müğənni onu pis yola çəkən tanışı ilə düşmən olub*

”Şərq” xəbər verir ki, ifaçı bunları söyləyib: ”Əxlaqdan danışanların kralıdır və kişidir. Xanım müğənnilər də var. Müəyyən titullar alıblar. Mənə zəng edib, deyiblər ki, filan məmur səninlə tanış olmaq, birgə nahar etmək istəyir. Mən də qəbul etməmişəm. İki gün sonra həmin adamlar guya məni tanımırlarmış kimi davranıblar. Məsələn, rəqs etdiyim videoya onlardan biri yazmışdı ki, bunu sil. Dedim niyə? Sənin iki gün əvvəl mənə satılıq qadın təklifindən pismi hərəkətdir? Sonra düşmən olduq. Mən sözü sərt deyən insanam. Hamını tanıyırlar. Kimsə deyə bilməz ki, Nüşabə kiminsə həyatında satılıq olub. Söyləyərlər ki, münasibəti var. Lakin satılıq idi deyə bilməzlər. Onların gəldikləri məkandan suları qurumayıb. Mənim rəqsimə ”Booy” deyir. Sən birinci özünə bax, sonra mənə əxlaqdan dərs keç”.

**N.Musayeva həmçinin həmkarı Rəqsanə İsmayılovanın Moskvaya üz tutan müğənnilər haqqında dediklərinə də münasibət bildirib:** ”Rəqsanə düz danışıb. O hörmətlə yanaşıb, ad çəkməyib. Mən olsam, həmin şəxsin adını da söyləyərdim. Rəqsanə niyə paxıllıq etsin?! Onun toydan qazandığı pulu hansı müğənni qazana bilir? Hətta o özü müğənnilərə dəstək göstərib. Məni də neçə dəfə dəvət edib. Deyir, ”gəl, oxu, çıx get”. Ailəliyəm deyib, gizli-gizli iş görürlər axı. Rəqsanə bunu demək istəyirdi. Yoxsa ona irad bildirdilər ki, sənin keçmişin belədir. Guya, kimin keçmişi normaldır?”.

**Samirə**

## “Axır ki, sən də nüfuzdan düşdün"

Vasif Məhərrəmli Elməddin Cəfərovla maraqlı bir xatirəsindən danışdı





**Müğənni Vasif Məhərrəmli ”Həmin Zaur” proqramında qonaq olarkən aktyor Elməddin Cəfərovla maraqlı bir xatirəsindən danışıb.**

**”Şərq” xəbər verir ki, sənətçi sözügedən verilişdə bunları söyləyib:**

”Bir dəfə məni sosial şəbəkələrdə top atəşinə tutmuşdular. Bu həmişə olub. Yəqin ki, yenə olacaq. Nə isə... Sonra bir restorona getmişdim. Elməddinlə rastlaşdım. Mənimlə görüşməmiş dedi: ”Axır ki, sən də nüfuzdan düşdün”. O gündən bir müddət sonra sosial şəbəkələrdə oxudum ki, Elməddin xəstələnib, xəstəxanaya yerləşdirilib. Konkret ölüm ayağında idi. Zəng elədim, cavab verən kimi dedim: ”Şükür Allaha, axır ki, sən də canınla əlləşirsən”. Sonra qayıtdım ki, danış, amma səsi də çıxmırdı. Mən də söylədim ki, bəhbəh, nə gözəl...”.

**Samirə**

## Onun səsi xətrə dəyən deyil

“Səmədin 80-100 yaşı olsa da, onu nəvəmin, nəticəmin toyuna çağıracam”



**Müğənnilər Cavanşir Məmmədov və Səməd Səmədov ”Günün sədası proqramında qonaq olublar.** C.Məmmədov efirdə həmkarı ilə bağlı maraqlı açıqlama verib.

”Şərq”in məlumatına görə, ifaçı sözügedən verilişdə bunları söyləyib: ”Nəvəm, nəticəm var. Əgər yenidən toy etsəm, Səmədin 80-100 yaşı da olsa, məclisə onu gətirəcəm. Çünki onun səsi həm aparıcı, həm də müğənni kimi xətrə dəyən deyil”.

**Samirə**

## “Namaz qılırsınızmı?"

Roza Zərgərliyə ünvanlanan sual diqqət çəkib



**Müğənni Roza Zərgərli instaqram hesabında yeni fotosunu paylaşıb.**

O, postun komment bölməsində izləyiciləri ilə söhbət edib. **”Şərq” xəbər verir ki, sənətçinin fotosunu hər kəs rəğbətlə qarşılayıb. Bir izləyicisinin sualı isə diqqət çəkib.** Ona görə ki, R.Zərgərliyə ”_hese1ov_2007” adlı istifadəçi ”Namaz qılırsınız?” deyə sual ünvanlayıb. İfaçı isə ”Təəssüf ki, xeyir” deyə cavab verib.

**Samirə**

## “Yer üzündən yox olun"

Zümrüd Bədəlova ona sevgi mesajı yazan izləyicisinə qarğış etdi



**Tanınmış aparıcı Zümrüd Bədəlova instaqramda növbəti dəfə paylaşım edib.**

Bir izləyicisi ona ”Sizi sevirəm. Mənə maşın, ev alın. Mən də sizi alım” deyə mesaj yazıb.

**”Şərq” xəbər verir ki, aparıcı həmin rəyi paylaşaraq bu sözləri əlavə edib:** ”Allah kimsənin ağlını başından almasın. Bəzi özünə kişi deyib ortada gəzənlərə yazığım gəlir. Mümkündürsə, siz nəfəs belə almayın. Yer üzündən yox olun”.

**Samirə**

# “Küsməyi, inciməyi xoşlamıram”

*Zakir Əliyev biri diqqətsizlik edəndə, günahı özündə axtarır*



"Övladlarım musiqini seçmədilər. Başqa sənətə yiyələndilər. Onları əvvəl musiqi təhsilini yönləndirmişdim. Biri tar, o biri də piano üzrə təhsil alıb. Lakin məktəbi bitirəndən sonra musiqidə davam etmədilər".

**”Şərq” xəbər verir ki, bu sözləri ”MTV Azərbaycan”a açıqlamasında Əməkdar arist Zakir Əliyev deyib. O, fikirlərinə bunları da əlavə edib:**

”Gərək həmişə sənətlə yaşayasan. Nə olsun ki, Zakir Əliyevin övladlarıdır. Sənəti mükəmməl öyrənməyə çalışmalısan. Atam mənim sənətə gəlməyimi görməyib. Ona görə pis oluram. O bizim ifalarımızı lentə almağı xoşlayırdı. Bacılarımın, qardaşlarımın səsini yazırdı. Mənim də uşaqlıqdan səsim var idi. Amma professional sənətə gəlişimi atam görmədi. Yeddinci sinifdə oxuyanda dünyasını dəyişdi. Ondan sonra musiqi təhsili aldım. Ardınca da sənətə gəldim. Küsməyi, inciməyi xoşlamıram. Bəzi insanlar ab-havadan küsürlər, sənəti atmaq istəyirlər. Mən nə vaxtsa kimdənsə küsməmişəm. Biri diqqətsizlik edəndə, sözünün yerini bilməyəndə, müraciət forması düzgün olmayanda günahı özümdə axtarmışam. Fikirləşmişəm ki, görəsən, hansı səhv hərəkət etmişəm ki, o belə edir”.

**Samirə**

# 10 aylıq olanda atasını itirib

*Ramil Nabranın anası başqası ilə evlənib*



Tanınmış reper Ramil Nabran həyatı ilə bağlı açıqlamalar verib. O, bu barədə "Həmin Zaur" proqramında danışıb.

**”Şərq” xəbər verir ki, R.Nabran atasını heç görmədiyini söyləyib:**

”Atam 1978-ci ildə dünyasını dəyişib. Mən 10 aylıq olmuşam. Anam sonra ailə qurub. 3 yaşımda atalığım olub. O da 13 yaşımda vəfat edib. Atamın tək övladıyam. Amma ana bir qardaşım və bacım var. Qardaşım da bir neçə il öncə rəhmətə getdi. Hər ailədə itki olur. İndi də həyat davam edir. Bacım sağdır, Türkiyədə ərdədir. Rəhmətlik atamdan keçən bir ağırlıq var. Sovetski əhli ağır olur. Sonra Əhmədlidə böyümüşəm, oranın öz qanunları olub. Efirdə bu haqda danışmaq istəmirəm. Lakin qeyd edim ki, köhnə kişilərin atmosferi qalıb. Bəzən şou-biznesdə məni tanıyana qədər haqqımda fərqli düşünürlər. Replərimdə təhqiri sevməmişəm. Xarakterimə də uyğun deyil. Sərt sözlər, tənqidlər ola bilər. Söyüşlər yolverilməzdir”.

**Samirə**





## Nazilə Eltonu elə təriflədi ki...

“Səni lojadan izləmək üçün gecənin ən bahalı masasını sifariş etdim”

**Şairə Nazilə Səfərli müğənni Elton Hüseynəliyevlə birgə fotosunu paylaşıb.**

*”Şərq” xəbər verir ki, o, sənətçinin ünvanına bu sözləri yazıb:* ”Dəyərli dostum Elton, bu gün solo konsertinə hazırlaşıram. Səni lojadan izləmək üçün gecənin ən bahalı masasını sifariş etdim. Əvəzsiz ifalarını dinləmək üçün heç bir məsrəfdən qaçmadım. Bu, sənə verdiyim dəyərin milyondan biri deyil. Səsin daim ucalardan gəlsin. Səni əsl sənət xiridarları sevir”.

**Samirə**

# Hamı vaksinasiyada maraqlı olmalıdır

## Qeydiyyatı olmayan şəxslərə "COVID-19 pasportu" verilməməlidir




"Koronavirusa yoluxan və rəsmi qeydiyyata düşməyən şəxslər antitel testinin nəticəsi ilə "COVID-19 pasportu" ala bilməzlər". Bunu Səhiyyə Nazirliyinin nümayəndəsi Günay Quluzadə deyib.

"COVID-19 pasportu" yalnız son 6 ayda virusa yoluxmuş və PCR testi ilə təsdiqlənmiş, "COVID-19 sertifikatı" isə peyvənd vurduran şəxslərə verilir", - o bildirib.

**Məsələ ilə bağlı fikirlərini "Şərq"ə bildirən həkim-pediatr Vaqif Qarayev da təsdiqləyib ki, "COVID-19 pasportu" yalnız portalda qeydiyyatdan keçmiş şəxslərə verilməlidir. Həkim vurğulayıb ki, kiminsə sözünə inanıb pasport vermək qanuna ziddir:** "Bilirsiniz ki, koronavirusa yoluxanlar və vaksin olunanlar portalda qeydiyyatdan keçirlər. Düzdür, bir sıra vətəndaşlarımız var ki, onlar da koronavirusa yoluxmuşdular, amma müəyyən səbəbdən yoluxduqlarını gizlədirdilər. Onlar bütün xəbərdarlıqlara baxmayaraq ev şəraitində gizlincə özlərini müalicə edirdilər. Təbii ki, belə adamların sayı çox idi. Buna görə də heç yerdə qeydiyyatı olmayan şəxslərə pasportun verilməsi düzgün deyil. Yəni bir sözə inanıb vermək düzgün deyil və bu, qeyri-ciddidir. Ümumiyyətlə, qeyd edim ki, bu hal gözlənilən idi. Çünki mən heç vaxt statistik rəqəmlərə inanmırdım. Çünki qat-qat yoluxanlar çox idi və onlar həkimlərə müraciət etmirdilər. İndi ona görə də həmin vətəndaşlarımız pasport almaq baxımından bu günləri əziyyət çəkirlər. Buna görə də bu günləri hər bir vətəndaşımız vaksin olunmaqda maraqlı olmalıdırlar".

**Aynurə Pənahqızı**

## "Nar" şəbəkəsi Hadrutda və Cəbrayılda!




**Bütün ölkə ərazisində şəbəkəsinin əhatə dairəsini daim genişləndirən "Nar" işğaldan azad edilmiş bölgələri də öz şəbəkəsi ilə təmin etməkdədir.**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Cəbrayıl rayonunda 2G, 3G və 4G texnologiyalı baza stansiyaları işə salınıb. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin müasir və daimi şəbəkə infrastrukturu ilə təmin edilməsi istiqamətində "Qarabağ planı" çərçivəsində "Nar" Şuşa şəhərində də baza stansiyalarının quraşdırılması işlərini davam etdirir.

Əhalini keyfiyyətli internetlə təmin etməyi hədəfləyən "Nar" ümumilikdə 2021-ci ilin birinci rübü ərzində 50-dən çox yeni baza stansiyaları quraşdırıb. Bununla da mobil operator 5670-dən artıq baza stansiyası ilə ölkə əhalisini kəsintisiz internetlə təmin edir.

*Qeyd edək ki, ötən ilin birinci rübü ilə müqayisədə bu ilin müvafiq dövründə LTE-A texnologiyası ilə ötürülən data trafikinin həcmi 22% artıb. Hazırda şəbəkədəki ümumi internetin təxminən 82%-i LTE-A texnologiyalı baza stansiyaları üzərindən verilir. Qeyd edək ki, "Nar"ın internet şəbəkəsi ölkə ərazisinin 89%-ni, ölkə əhalisinin isə 99,9%-ni əhatə edir.*

*Xatırladaq ki, Vətən müharibəsi dövründə "Nar" səyyar baza stansiyaları vasitəsilə işğaldan azad edilmiş əraziləri mobil rabitə ilə təmin edirdi.*

## Paylaşma böyük qalmaqal yaradıb

### 3 qadının "ehtiraslı" fotoları 4 nəfəri işsiz qoydu



**Türkiyənin İzmir Böyükşəhər Bələdiyyəsinin Yanğınsöndürmə Xidmətininq Toros Yanğın və Təbii Fəlakətlərlə Mübarizə Təlim Mərkəzində üç qadının fotolar çəkərək sosial şəbəkələrdə paylaşması böyük qalmaqal yaradıb.**

Qadınlardan biri yanğınsöndürən avtomobili idarə edib, iki qadın isə maşının arxasından tutaraq "yola çıxıblar".

Milli.Az İnternethaber-ə istinadən bildirir ki, "Yanğını söndürməyə gəldik. Ehtiraslı fotolar" yazısı ilə müşayiət olunan fotolar sosial şəbəkələrdə yayılandan sonrra Təlim Mərkəzinin 4 əməkdaşı işdən kənarlaşdırılıb.

*Fotoları paylaşan qadınlar sosial şəbəkələrdəki profillərini qapadıblar.*

## 26 yaşlı qız özünü dördüncü mərtəbədən atdı



**Mecidiyeköydə (Türkiyə) psixoloji problemləri olduğu bildirilən 26 yaşlı bir qız özünü 4-cü mərtəbədən atıb.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, dəhşət anları kameralara düşüb. Ağır yaralanan gənc qızı xəstəxanaya aparıblar. Gənc qızı intihardan çəkindirməyə çalışan vətəndaşların səsləri də videoya düşüb.

# Bala qarğanı pişikdən qorumaq istədi



14 yaşlı Yunus qarğaların hücumuna məruz qaldı

Bütün bu olanlar məhəllə sakinləri tərəfindən mobil telefonla videoya alınıb. Yunus hadisə barədə danışarkən deyib ki, məhəllədə evlərinin önündəki ağacda qarğa yuvası var.

Bina sakinləri onları bəsləyir. Səhər sakinlər görüb ki, qarğalar küçənin bir hissəsində havada uçuşur, yaxınlaşanda bala qarğanın avtomobil üzərində olduğunu və böyük qarğaların da ona kimsə zərər verməsin deyə "havadan müdafiə sistemi" qurduqlarını görüblər. Qarğalar havada uçuşaraq balaya yaxınlaşmaq istəyən hər kəsə hücum edib başlarını dimdikləməyə çalışırmışlar. Mən əvvəlcə böyüklərdən soruşdum ki, bala qarğanı götürmək olarmı, mənə "xeyr", dedilər. Amma baqqaldan qayıdanda atam eyvanda durmuşdu, mənə bala qarğanı götürməyimi tapşırdı. Adətən quşları tutmuram, bu işi bacarmıram. Evimizdə məhəbbət quşu var. Onu da tuta bilmirəm. Amma atam dedikdən sonra balaqarğaya yaxınlaşdım və əlimə aldım. Balanı əlimə alar-almaq anasıyla atası üstümə cumdular. Biri kürəyimə caynaq atdı. Kürəyimə qonmağa çalışdı. Birtəhər əllərindən yaxamı qurtardım. Qarğaların hücumuna məruz qalacağımı təxmin edirdim, amma bu qədərini yox. O hadisədən sonra qarğalar məni tanımasın deyə, başıma papaq qoyuram. Küçəyə də az çıxıram. Eybi yoxdur, qoy mənə hücum etsinlər, təki bala qarğa yaşasın. Mən onu götürməsəydim, pişiklər tutacaqdı. İndi qarğa əmimgildədir. Əmim əvvəllər də qarğa bəsləyib. Balanı da saxlayıb, bəsləyəcək".

**Məlahət**

### Elan

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən 17.11.2017-ci tarixində Heydanova Türkan Əli qızının adına verilmiş A N:121878-li diplom itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-**MÜHASİBAT** (2 AY)

-**Mobil telefonların təmiri** (3 ay)

-**KOMPYUTER** (1-3 AY)

-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 983



# Maddəni 1,5 milyon dollara satdılar

## Balina cəsədindən milyonlar qazandılar

**Yəməndə bir qrup balıqçı Ədən körfəzində tapdıqları balina cəsədindən milyonlar qazanıblar. Cəsəddən pis qoxu gəldiyini görən 35 nəfər balıqçı balinanın mədəsini yarmağa qərar veriblər.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, kiçik bir qayıqla cəsədi sahilə sürükləyən balıqçılar balinanı kəsdikdə onun mədəsindən 127 kiloqram "akamber" maddəsini tapıblar.

Balıqçıların dediyinə görə, bu maddədən pis qoxu gəlsə də, kifayət qədər qiymətlidir. "Akamber" maddəsi balinaların mədəsində olur və ətirlərin hazırlanmasında istifadə olunur. Balıqçılar tapdıqları 127 kiloqramlıq "akamber"i 1.5 milyon dollara satıblar.

**Yeganə**

# Gəlin toyda infarkt keçirib öldü

## Elə həmin gün bəyi onun bacısı ilə evləndirdilər



**Hindistan nə olursa olsun, toyların ləğv edilməməsi ilə tez-tez gündəmə gələn bir ölkədir.**

Keçən həftələrdə bəyin toydan qaçmasından sonra gəlin qonaqlardan biri ilə evlənmişdi. Bu dəfə isə gəlin öz toyunda infarkt keçirib.

"Şərq" "Haberglobal.com"a istinadən xəbər verir ki, gəlin öldükdən sonra bəy gəlinin bacısı ilə evlənib. Hadisə Uttar Prades əyalətində baş verib.

Gəlin yaşadığı stres səbəbindən toyda infarkt keçirib. Hadisə yerinə həkimlər gəlsə də, onun həyatını xilas etmək mümkün olmayıb. Amma cənazəyə çevrilən toy ləğv edilmədi. Ailələr arasında qısa bir müzakirədən sonra bəy gəlinin bacısı ilə evlənib. Gəlinin əmisi "Bu, çətin bir qərar idi" söyləyib.

Bədbəxt gəlinin cəsədi isə toy bitənə qədər bir otaqda saxlanılıb. Öz toyunda vəfat edən gəlinin daha sonra bir mərasimlə yandırıldığı açıqlandı.

**Yeganə**

# Taksiyə baxış keçirildi

## Sərnişin narkotika paketini qoyub qaçdı



**İstanbulda polisin keçirdiyi reydlər zamanı taksidəki sərnişin qəfil qapını açaraq qaçmağa başlayıb.**

Bu barədə "Şərq" "Posta"ya istinadən xəbər verir. Bildirilir ki, qaçan sərnişin tutulub. Taksiyə baxış zamanı isə içində beş kilo narkotik maddə olan paket tapılıb.

**Kənan**



# Bala qarğanı pişikdən qorumaq istədi

## *14 yaşlı Yunus digər qarğaların hücumuna məruz qaldı*





**İstanbulun Sultanqazi bölgəsində 14 yaşlı Yunus Əmrə Aktaş qarğaların hücumuna məruz qalıb. Maraqlı burasıdır ki, qarğalar - "ana-ata" qarğalarmış. Yunus bala qarğanı əlinə aldığı üçün ona hücum ediblər.**

Halbuki Yunus bala qarğanı küçə pişiklərindən qorumaq üçün əlinə alıb. "Valideynlər"sə Yunusu balaya zərər verəcək birisi zənn ediblər. Hadisənin təfərrüatları "Millliyət.com"dadır. Hadisə Sultanqazinin Cebeci məhəlləsində baş verib. 14 yaşlı Yunus Əmrə Aktaş küçədə parklanmış bir avtomobilin üzərində bala qarğa görüb. Bala quş uça hələ bilmədiyindən yerindən tərpənə bilmir, küçə pişikləri isə onu real "qida" obrazında görüb dörd bir yanını əhatəyə alıblar. Məhəllə sakinləri bala qarğanı xilas etmək istəsə də ana-ata qarğalar kimsənin ona yaxınlaşmasına izn verməyiblər. Ətrafdan keçənlərə də hücum edib dimdikləyiblər. Bunu görən Yunus yaxınlaşıb bala qarğanı ovcuna alıb. Bu zaman 14 yaşlı Yunus irəli keçib bala qarğanı əlinə alıb. Sonra da böyük qarğalardan qorunmaq üçün yaxınlıqdakı yaşayış binasına doğru qaçıb, orada gizlənmək istəyib. Binanın giriş qapısı şifrəli olduğundan içəri keçə bilməyib və çarəni qaçmaqda görüb. Qarğalar da ardınca... Yunus küçədə ilişib yıxılıb, qarğalar ona hücum çəkib, Yunus birtəhər ayağa qalxıb yenə qaçıb və nəhayət, çalışdığı iş yerinə çatıb və qarğaların hücumundan canını qurtarıb.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Acunun boşadığı Seymanın sevgilisi fırıldaqçı çıxdı



**Türkiyənin ən məşhur media-menecerlərindən olan Acun Ilıcalının boşandığı xanımı Seyma Subahının əslən misirli, milyarder olduğu vurğulanan Muhamməd Alsalussi yenidən gündəmdədir.**

Milli.Az Habertürk-ə istinadən bildirir ki, Seyma Subaşı sevgilisinin ona evlənməyi təklif etdiyini İnstagram profilində yazıb.

Lakin son anda yayılan xəbərlərə görə, Muhamməd Alsalussi milyarder deyil. Onun fotolarını paylaşdığı villa kirayəlik, Ferrarisi isə başqasınındır.

Seyma Subaşı bir övladının olduğu Acun Ilıcalıdan ayrılandan sonra DJ Quido Senya ilə sevgili olmuşdu.

36 yaşlı Muhamməd Alsalussi Misirdə bir şeyxin övladı, ABŞ-ın Florida ştatındakı ailə şirkəti "Alsaloussi Holding"də direktor olduğunu iddia edir. Bundan başqa, Alsalussi 11 şirkətinin olduğunu da deyir.

Lakin həmin şirkətlərin heç birinin nə saytı, nə də rəsmi qeydiyyat sənədləri var.

# Ben Afflek Cenniferin evində gecələdi



**Müğənni Cennifer Lopezin keçmiş sevgilisi Ben Affleklə yenidən münasibətə başlaması öz əksini tapıb. Axşam.az xəbər verir ki, bu barədə "Page Six" nəşri məlumat yayıb.**

İyunun 2-də Ben Cenniferin evindən çıxarkən paparatsilərin hədəfinə tuş gəlib. Gecəni orada keçirən aktyorun üzündəki təbəssüm diqqətdən yayınmayıb.

*Qeyd edək ki, Cey Lo bir neçə ay əvvəl nişanlısı Aleks Rodrigezdən ayrılıb. O, Ben Affleklə 2002-ci ildə görüşməyə başlamış və 2 illik münasibətdən sonra ayrılmışdılar.*